NİKAHLARIN SAYI ARTMAĞA BAŞLADI

# UZUN FASİLƏDƏN SONRA NİKBİN STATİSTİKA

Azərbaycanda uzun müddətdir ki, azalan nikah statistikası artmağa başlayıb. Son illər insanlar evlilik qərarını verməkdə çətinlik çəkir, nikahlar azalır, boşanmalar isə artırdı. Amma 2025-ci ilin ilk iki ayında bu neqativlik az da olsa dəyişməyə başlayıb.

2025-ci ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən 7741 nikah və 3414 boşanma qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 4,0-dan 4,7-yə qədər artıb.

SƏHİFƏ 7-də




'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

3 MAY ŞƏNBƏ 2025 № 16 (4217) Qiyməti - 60 qəpik www.kaspi.az



## HİNDİSTAN VƏ PAKİSTANI ÜZ-ÜZƏ QOYAN FAKTORLAR

İki ölkə arasında intensivləşən gərginliyi alovlandıran əsas tərəf Hindistandır. Təşkilatçısı bilinməyən terror aktını bəhanə edən rəsmi Nyu-Delhi Pakistanla imzalanan və Dünya Bankının təminatçısı olduğu çaylar üzrə müqavilənin icrasını birtərəfli qaydada dayandırıb.

SƏHİFƏ 5-də



## RƏSMİ SERVİS, YOXSA "ÖLÜXANA"?

Bu ilin yanvar-fevral aylarında Azərbaycan 353 milyon 777,12 min ABŞ dolları dəyərində nəqliyyat vasitələri və onların hissələrini idxal edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 25 milyon 913,88 min ABŞ dolları və yaxud 7,9 faiz çoxdur. Göründüyü kimi, ehtiyat hissələrinə çəkilən xərc artmaqdadır.

SƏHİFƏ 14-də



## MÜŞFİQ OCAĞININ BİTMƏYƏN DƏRD-SƏRİ

Nakam şairimiz Mikayıl Müşfiqin Xatirə Muzeyi sonuncu intensiv yağışlardan sonra fəaliyyətini dayandırıb. Səbəb muzeyin qarşısından axan Tuğ çayı üzərindəki körpünün dağılmasıdır. Amma problemlər yalnız təbiətin şıltaqlığı ilə bağlı deyil...

SƏHİFƏ 15-də

REGİONAL NİZAMDAN YENİ DÜNYA DÜZƏNİNƏ DOĞRU

# AZƏRBAYCAN GEOSİYASİ MODERATOR ROLUNDA



İndi Azərbaycanın xarici siyasət gündəmində tamamilə başqa hədəflər durur. Rəsmi Bakı yeni dünya nizamı prosesində fəal iştirak edir və geosiyasi dividentlər hədəfləyir.

### İLİN ƏVVƏLİNDƏ VERİLƏN ÖNƏMLİ ANONS

Bakının yeni dünya düzəninin formalaşdırılması prosesini kənardan izləməyəcəyinin anonsunu Prezident İlham Əliyev ilin əvvəlində etmişdi. O bildirmişdi ki, Azərbaycanın bu nizamın yenidən formalaşdırılması prosesindən ciddi gözləntiləri var. Bu məzmunlu bəyanat rəsmi Bakının əldə etdiyi yeni geosiyasi status - Orta gücün ölçü və konturlarını dəqiq şəkildə müəyyən edirdi ki, son illərin, xüsusilə də ayların diplomatik trafiki bunun əyani təzahürüdür.

### LİDERLƏRİN ARDICIL BAKI SƏFƏRLƏRİ

Son bir ay ərzində müxtəlif dövlət liderlərinin Azərbaycana səfərləri Bakının daha bir geosiyasi resursu olan siyasi nüfuzundan xəbər verir. Bu nüfuz Azərbaycanın yeni kapital mənbəyidir və Avropanı mavi yanacaqla təmin etməkdən, yaxud Şərq-Qərb nəqliyyat dəhlizindən daha dividentlidir. Bu səfərlərin ardıcıllığına diqqət yetirəndə bunu görmək mümkündür.

SƏHİFƏ 4-də

"Rolları haqqında danışmağı xoşlamırdı"

# "ONUN YOLUNU LAYİQLİ DAVAM ETDİRMƏK İSTƏYİRDİK"



Tamaşaçıların sevimlisi olan mərhum aktyorumuz, Xalq artisti Fuad Poladovun ölümündən sonra ailə üzvləri mətbuata müsahibə verməyiblər. Aktyorun mətbuatla "məsafəsi" sanki ailəsinə də sirayət edib. Nəhayət, Fuad Poladovun qızı - Fəridə Poladova "Kaspi"yə müsahibə verməyə, atasının pərdəarxası həyatından danışmağa razı oldu. Görkəmli aktyorun necə övladlarını sevən bir ata, necə bir ailə başçısı olmasından, həyatını yarıda qoyan xəstəliyindən danışdı.

SƏHİFƏ 8-9-da



## İKİ ÖLKƏNİ YAXINLAŞDIRAN SƏFƏR

Azərbaycan yaxın qonşusu olan İran İslam Respublikası ilə münasibətdə hər zaman xoşməramlılıq nümayiş etdirib. Məsud Pezeşkianın başa çatmaqda olan həftədə reallaşan səfəri qarşı tərəfdə də bu niyyətin olduğuna dair ümidlər yaradır.

SƏHİFƏ 2-də




## BANKLAR ÜÇÜN UNİKAL ŞANS

Maliyyə Nazirliyi ilk dəfə olaraq yerli banklara 1,5 milyard manat dəyərində depozit yerləşdirib. Ekspertlər bu addımı müsbət qarşılayır və alqışlayırlar. Lakin onlar maliyyə sektorundakı bu yeniliyin kredit faizlərinə ciddi təsir göstərməyəcəyi qənaətindədirlər.

SƏHİFƏ 11-də



## PODQORİTSADA CÜDOÇULARIMIZIN AVROPA SINAĞI

Azərbaycan medalların əyarına görə 47 ölkə arasında ümumi komanda hesabında 10-cu, kişilər arasında isə beşinci yeri tutdu. Zelim Kotsoyevdən başqa, digər mükafatçılar karyeralarında ilk dəfə böyüklər arasında Avropa çempionatında medal qazanmağın sevincini yaşadılar.

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# İKİ ÖLKƏNİ YAXINLAŞDIRAN SƏFƏR



Azərbaycan İrana münasibətdə hər zaman xoşməramlılıq nümayiş etdirib. Məsud Pezeşkianın başa çatmaqda olan həftədə reallaşan səfəri qarşı tərəfdə də bu niyyətin olduğuna dair ümidlər yaradır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri mühüm məqamlarla yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevlə iki ölkə arasındakı münasibətlərin müxtəlif aspektlərinə dair aparılan müzakirələr, əldə edilən razılaşmalar Bakı və Tehran arasında əlaqələrin mövcud durumuna nəzər salmaq baxımından da mühüm əhəmiyyət kəsb edir.

### “MƏRAMIMIZ, MƏQSƏDİMİZ BİRDİR”

Hər iki ölkənin bu səfərə xüsusi diqqət yetirdiyi prezidentlərin mətbuata birgə bəyanatı zamanı səsləndirdikləri fikirlərdən də aydın görünür. Prezident İlham Əliyevin sözlərinə görə, Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür: “Bu gün apardığımız danışıqlar və fikir mübadiləsi əsnasında bir çox önəmli məsələlər haqqında söhbət etdik, fikirlərimizi bildirdik, Azərbaycan-İran strateji münasibətlərini bir daha təsdiqlədik. Biz bütün məsələlərə səmimi şərait əsnasında öz fikirlərimizi bildirmişik. Əsas məsələ ondan ibarətdir ki, hər iki tərəf Azərbaycan-İran əlaqələrinin inkişafına çalışmalıdır və çalışır. Hörmətli Prezidentin böyük heyətlə Azərbaycana gəlməsi və bu gün bir çox önəmli sənədlərin imzalanması, o cümlədən prezidentlər səviyyəsində imzalanmış sənəd bir daha bizim xoş niyyətimizi göstərir, onu göstərir ki, biz bütün istiqamətlər üzrə bir-birimizə daha yaxın olmağa çalışırıq”. İlham Əliyev vurğulayıb ki, məramımız, məqsədimiz birdir - Azərbaycan-İran dövlətlərarası əlaqələri yüksək səviyyəyə qaldırmaq: “Bunun üçün yenə də deyirəm, müvafiq göstərişlər verildi və əminəm ki, bu göstərişlər yerinə yetiriləcək”.

## “Öhdəlik götürdüyümüz sənədləri icra edəcəyik”

Keçirilən görüşlərdə Məsud Pezeşkianın azərbaycanlı həmkarı İlham Əliyevə “əziz qardaşım” deyə xitab etməsi xüsusilə diqqət çəkdi. Onun sözlərinə görə, hər iki dövlət birlikdə bölgədə sülh, təhlükəsizlik və əmin-amanlığı təmin edəcək və öz çətinliklərini həll edəcək: “Beləliklə, bütün sahələrdə əməkdaşlıq edə bilərik. Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun. Bunun üçün yolları birləşdirək, maliyyə, ticarət əlaqələrimizi düzəldək, Şimal-Cənub, Şərq-Qərb dəhlizlərini yaradaq. Bütün bunları qarşılıqlı dəstək sayəsində həyata keçirək. İş adamlarımız birgə istehsal proseslərini həyata keçirsinlər, birgə sərmayələr yatırsınlar, işlər qursunlar. Biz istehsal, elm, mədəniyyət, iqtisadiyyat, siyasət sahələrində birgə hərəkət etməli, digərlərinə bunları pozmağa imkan verməməliyik. Onlar aramızda ixtilaf yaratmaq istəsələr, buna yol verməyəcəyik. Bizim aramızda bizi birləşdirən çoxlu ortaq amillər, hətta ailə, qohumluq əlaqələrimiz var. Bu, elə bir məsələdir ki, heç kəs bunları poza bilməz. Əziz qardaşım, Prezident İlham Əliyev böyük əzm və iradə nümayiş etdirir. Biz də öz tərəfimizdən, inamımıza, iradəmizə və əzmkarlığa əsaslanaraq, Allahın köməyi ilə bütün əldə olunmuş nailiyyətləri artıracağıq, öhdəlik götürdüyümüz sənədləri icra edəcəyik”.



### İRANIN ƏN TƏHLÜKƏSİZ SƏRHƏDİ

Bu səfər zamanı Azərbaycanın ali rəhbərliyinin ortaya qoyduğu siyasi iradə və qonşu ölkənin rəhbərinə qarşı səmimi münasibət Vətən müharibəsindən sonra 2020-ci ilin noyabrın 16-da Prezident İlham Əliyevin Xudafərin körpüsünü “Dostluq körpüsü” adlandırması ilə nümayiş etdirilən mehriban qonşuluq siyasətinin təzahürüdür. Bu gün İranın ən təhlükəsiz sərhədləri məhz Azərbaycanladır. Azərbaycan İrana münasibətdə hər zaman xoşməramlılıq nümayiş etdirib. Regional proseslərdə qarşılıqlı maraqların bərabərhüquqluluq prinsipi əsasında nəzərə alınması məqsədi ilə yaradılan 3+3 formatlı müxtəlif platformaların da təşəbbüskarı məhz Bakı olub.

## ÇOXSAYLI İQTİSADİ VƏ GEOSİYASİ MƏQAMLAR

Mövcud beynəlxalq müstəvidə iki ölkəni birləşdirən çoxsaylı iqtisadi və geosiyasi məqamlar var. Burada Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri xüsusi önəm daşıyır. Azərbaycan-İran iqtisadi-ticari əlaqələrinin gələcək perspektivləri ilə bağlı tərəflərin birgə biznes-forum zamanı səsləndirdikləri fikirlər xüsusilə diqqətəlayiqdir.

Prezident İlham Əliyevin sözlərinə görə, statistik rəqəmlərə baxdıqda görürük ki, iki ölkə arasındakı ticarət dövriyyəsi heç bir milyard dollara çatmır və əlbəttə ki, bu, bizi qane edə bilməz: “Ona görə ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, müştərək müəssisələrin yaradılması və digər buna oxşar təşəbbüslər əlbəttə ki, təqdirəlayiq olacaq”. Dövlət başçısının sözlərinə görə, Azərbaycan və İran, eyni zamanda, önəmli beynəlxalq layihələrdə iştirak edir: “O cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi üzrə biz sıx əməkdaşlıq edirik. Biz istəyirik ki, bu, sadəcə, nəqliyyat dəhlizi olmasın, həm Azərbaycan, həm də İran ərazisində yol boyunca yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkan yaratsın”.

İran Prezidenti də azərbaycanlı həmkarı ilə həmfikir olduğunu deyib: “Əziz qardaşımın vurğuladığı kimi, Azərbaycan və İran nəqliyyat marşrutlarının kəsişməsində yerləşən ölkələr olaraq aramızdakı əsas nəqliyyat dəhlizlərini və marşrutlarını – bizimlə Rusiya arasında Şimal-Cənub, həmçinin Şərq-Qərb nəqliyyat marşrutlarını həyata keçirə bilərlər”.

Beləliklə, məlum hadisələrdən sonra iki ölkə arasında bəzi məsələlərdə yaranan fikir ayrılıqlarının müzakirələr yoluyla aradan qaldırılması üçün tarixi fürsət yaranıb. Azərbaycan bu niyyətində hər zaman olduğu kimi qətiyyətli və səmimidir. Məsud Pezeşkianın səfəri qarşı tərəfdə də bu niyyətin olduğuna dair ümidlər yaradır.

# HAKER HÜCUMLARININ DETALLARI AÇIQLANDI



“Global Media Group”a daxil olan informasiya resurslarına kiberhücum Rusiyadan qaynaqlanıb. Hücum texniki cəhətdən peşəkar səviyyədə həyata keçirilib.

Milli Məclisdə “Azərbaycanın media resurslarına kiberhücumlar” mövzusunda ictimai müzakirələr keçirilib. Tədbirdə bu sahədə mövcud vəziyyət müzakirə olunub.

### SIRAVİ KİBERHÜCUM OLMADIĞININ GÖSTƏRİCİSİ

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının sədri Ramid Namazov bildirib ki, “Global Media Group”a daxil olan informasiya resurslarına haker hücumunun ilkin təhlilləri göstərir ki, daxili infrastruktur zərərverici proqram təminatları ilə yoluxdurulub, mərkəzi idarəetmə sistemi tam olaraq ələ keçirilib. O qeyd edib ki, hücum nəticəsində, sistem inzibatçısına məxsus kompüter ələ keçirilib, bütün internet resurslarının ehtiyat nüsxələrinin saxlanıldığı serverə giriş edilib.

R.Namazovun sözlərinə görə, təbii ki, hücuma məruz qalan media resurslarının kibertəhlükəsizliyinin təmin edilməsi məqsədilə aidiyyəti qurumlar tərəfindən dərhal müvafiq addımlar atılıb. “Hücum zamanı istifadə edilən IP (internet protokol) ünvanları və domenlər, o cümlədən qrupun bütün əlaqələri müəyyən edilib. Qeyd edilməlidir ki, hücumlara ölkədaxili IP-lərdən də dəstək verildiyi, kiberhücumda iştirak edən bəzi şəxslərin ölkəmizin ərazisində olduqları, hətta hansı hoteldə olduqları müəyyən edilib. Söhbət əcnəbilərdən gedir. Bu isə məsələnin sıravi bir kiberhücum halı olmadığının göstəricisidir”.

## KİBERHÜCUMLARDA RUSİYA İZİ

R.Namazovun sözlərinə görə, media resurslarına kiberhücum Rusiyadan qaynaqlanıb: “Kiberhücum Rusiyadan qaynaqlanan kibercasus qrupu tərəfindən edilib. Təbii ki, bu təəssüf hissi doğurur”.

R.Namazov vurğulayıb ki, bu, həmçinin Azərbaycanla Rusiya arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin konkret müddəalarına və əlaqələrin ruhuna zidd olan bir haldır:

“Ekspertiza nəticəsində istər hücum zamanı istifadə edilən texniki üsullar, istərsə də davranış modelləri hücumun Rusiya ilə əlaqəli olan APT29 (“Cozy Bear”), yəni “Rahat Ayı” (digər adları isə Midnight Blizzard, the Dukes) qrupuna məxsus olduğu müəyyən edilmişdir. Bu qrup xüsusi əhəmiyyətli kiberəməliyyatlar həyata keçirən mütəşəkkil dəstədir”.

O bildirib ki, aparılan kiberpsixologiya təhlilləri nəticəsində hücumun motivinin də haradan qaynaqlandığı aydın olur: “Motiv - fevralın 3-də ölkəmizdə hüquqi şəxs qismində qeydiyyatı olmayan və qanunvericiliyin tələblərini ciddi şəkildə pozduğu üçün fəaliyyətinə xitam verilən Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi – “Rus Evi” və o vaxt üçün ləğv edilməsi ilə bağlı söhbətlər gəzən “Rossiya Seqodnya”nın (Sputnik) Azərbaycandakı nümayəndəliyi idi”.

## DÖVLƏT TƏHLÜKƏSİZLİYİNİN VACİB HİSSƏSİ

“Global Media Group”un İdarə Heyətinin üzvü Orxan Məmmədov bildirib ki, informasiya təhlükəsizliyi, xüsusilə də media sahəsində yalnız texniki məsələ deyil, dövlət təhlükəsizliyinin vacib bir hissəsidir.

O xatırladıb ki, “Global Media Group”a qarşı ciddi və genişmiqyaslı kiberhücum olub: “Hücum ilk olaraq “Baku TV”nin daxili serverlərinə yönəldi, daha sonra report.az, oxu.az, baku.ws, caliber.az və media.az kimi ölkənin aparıcı xəbər portallarına yayıldı. İT komandamızın və dəvət olunmuş müvafiq qurumların operativ müdaxiləsi nəticəsində virusun yayılması dayandırıldı. Lakin təəssüf ki, bəzi serverlərdə məlumat itkisi yaşandı və saytların fəaliyyəti qısa müddət də olsa pozuldu”.

İdarə Heyətinin üzvü əlavə edib ki, həmin dövrdə serverlərdə mütəxəssislərin tövsiyə etdiyi, beynəlxalq səviyyədə tanınmış qabaqcıl müdafiə sistemləri mövcud idi:

“Buna baxmayaraq, hakerlər çox yüksək səviyyəli və az tanınan metodlardan istifadə edərək müdafiə səddini aşa bildi. Bu, bir daha göstərdi ki, qarşı tərəfin hazırlıq səviyyəsi qeyri-adi dərəcədə güclü idi”.



Orxan Məmmədov

Sonda müstəqil media resurslarının kiberhücumlara qarşı qorunması ilə bağlı qanunvericiliyə dəyişiklik edilməsi təklif olunub. Bu təkliflə R.Namazov çıxış edib. O qeyd edib ki, dövlət qurumlarının onlayn resursları qorunur, amma müstəqil resurslarla bağlı belə mexanizm yoxdur.




## “İctimai proseslər media müstəvisində”

Mayın 2-də Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə “İctimai proseslər media müstəvisində” mövzusunda forumun açılış mərasimi keçirilib.

Mərasimdə çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ölkəmizin media gündəminin aktual əhəmiyyət kəsb edən ictimai məzmunlu məsələlərinin müzakirəsini hədəfləyən forumun artıq ikinci ildir dövlət-media dialoqunu formalaşdıran səmərəli platforma kimi fəaliyyət göstərdiyini vurğulayıb. 2025-ci ilin Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan edildiyini xatırladan icraçı direktor bildirib ki, Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı misilsiz xidmətləri sırasındadır.

Ə.İsmayılov, həmçinin qeyd edib: “Son illərdə media və kommunikasiya fəaliyyətinin müasir formada təşkil edilməsinin nəticəsidir ki, ölkəmizə qarşı qarayaxma kampaniyaları aparan tərəflərin həqiqi niyyətləri yerli mediada operativ formada ifşa olunur, cəmiyyətdə neqativ xəbər axınına qarşı dayanıqlı təbii müqavimət – informasiya immuniteti gücləndirilir”.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva bildirib ki, son illər rəqəmsal texnologiyalara sürətli keçid, media mühitinin müasirləşməsi və bu qəbildən olan digər innovasiyalar keyfiyyətcə yeni media mühitini formalaşdırmaqdadır. Lakin bu transformasiya fonunda bəzi ciddi risklər də meydana çıxa bilər. Onlar sırasında dezinformasiya, nifrət nitqi, şəxsi həyatın toxunulmazlığına müdaxilə, rəqəmsal təqib, kiberzorakılıq, təhsildən yayındırma, zərərli sahələrə meyillilik, aqressiv davranışlara səbəb olma halları ilə bağlı risklər xüsusi ilə qeyd olunmalıdır.

# AZƏRBAYCAN GEOSİYASİ MODERATOR ROLUNDA











İndi Azərbaycanın xarici siyasət gündəmində tamamilə başqa hədəflər durur. Rəsmi Bakı yeni dünya nizamı prosesində fəal iştirak edir və geosiyasi dividentlər hədəfləyir.



RÜSTƏM QARAXANLI

Azərbaycanın xarici siyasətinə münasibətdə tətbiq edilməyə başlamış yeni geosiyasi termin - Orta güc rəsmi Bakının regional liderlik çərçivələrini aşaraq daha böyük coğrafiyada fəaliyyətini əks etdirən statusun təcəssümüdür. İndi bu çoxvektorlu diplomatiyanın qarşısında duran vəzifələr fərqli və daha qlobal xarakterlidir. Azərbaycanın xarici siyasət kontaktlarında nəzərə almağa məcbur olduğu və üzərində bir təzyiq amili kimi hiss etdiyi başlıca problem - torpaqlarının işğalı faktorunu neytrallaşdırdıqdan sonra diplomatik təmasların mahiyyəti də transformasiyaya məruz qalıb. İndi Azərbaycanın xarici siyasət gündəmində tamamilə başqa hədəflər durur: Yeni dünya nizamı prosesində iştirak və əldə edilə bilinəcək geosiyasi dividentlər.

**İLHAM ƏLİYEVİN İLİN ƏVVƏLİNDƏ VERDİYİ ANONS**

Bakının yeni dünya düzəninin formalaşdırılması prosesini kənardan izləməyəcəyinin anonsunu Prezident İlham Əliyev ilin əvvəlində etmişdi. Dövlət başçısı bəyan etmişdi ki, Azərbaycanın bu nizamın yenidən formalaşdırılması prosesindən ciddi gözləntiləri var. Bu məzmunlu bəyanat rəsmi Bakının əldə etdiyi yeni geosiyasi status - Orta gücün ölçü və konturlarını dəqiq şəkildə müəyyən edirdi ki, son illərin, xüsusilə də ayların diplomatik trafiki bunun əyani təzahürüdür.

Hələ ötən ilin sonuna qayıdıb Azərbaycanın COP29 kimi mötəbər tədbirə ev sahibliyi etdiyini, daha sonra isə İslam aləminin elitar iqtisadi klubu olan D-8-ə qəbulunu xatırlamağımız qənaətimizin təsdiqi üçün yetərlidir. Azərbaycanın müsəlman dünyasının həyatında oynamağa başladığı əlahiddə rol onun Yaxın Şərq kimi mürəkkəb regiona nüfuz etməsilə büruzə verilir. Bakı yenidən qurulmağa başlayan Suriyadakı proseslərdə iştirak niyyətini irəli sürür və bununla da müsəlman dünyasının yeni aktoru mövqeyindən çıxış edir. Digər tərəfdən isə həmin İslam aləminin başlıca problemi olan İsraillə münasibətlərin nizamlanması prosesindəki iştirakın növbəti fazasına qədəm qoyur: əvvəl ABŞ-nin yəhudi icması Azərbaycanın Avraam razılaşmasında iştirakı təşəbbüsü ilə çıxış edir, sonra isə Bakının Ankara-Təl-Əviv gərginliyinin aradan qaldırılması prosesinin əsas vasitəçisi olduğu bəyan olunur.

Paralel olaraq geoiqtisadi təşəbbüslərin aktivləşməsi prosesi də izlənilir. Azərbaycan Rusiya-Ukrayna müharibəsi fonunda dünyanın qarşılaşdığı irimiqyaslı logistika və ticarət böhranından çıxışın kilid isminə çevrilir. Şərq-Qərb ticarət prosesinin yeni trendi olan Orta Dəhliz layihəsi məhz Azərbaycanın illərlə vəsait yatırdığı nəqliyyat infrastrukturu hesabına gələcəyə ümid qazanmış olur.

## Regional nizamdan yeni dünya düzəninə doğru

Bakının memarı olduğu yeni regional reallıq ən azı son beş il ərzində onu inkar edən Avropa İttifaqı üçün xilas faktoruna çevrilməkdədir. "Qoca qitə"nin həzm edə bilmədiyi gerçəklik onun qısqanc reaksiyasından imdad diləmə siyasətinə doğru ağrılı transformasiya prosesinə çevrilir. ABŞ ilə ideoloji gərginlik özünü real siyasətdə büruzə verir və bu gün Avropanın qarşısında qlobal formatlanma kimi mürəkkəb vəzifə durur. Söhbət qitənin iqtisadi oriyentasiyasını Şərqə doğru dəyişməsindən gedir. ABŞ himayəsinin kəsilməsi və Rusiya təhlükəsi önündə ən optimal çıxış yolu Çinə sığınmaqdır. Bunun yolu da Azərbaycandan keçir. Ukraynada müharibə fonunda tələsik Bakıya gəlib mavi yanacaq istəyən, sonra isə Azərbaycana qarşı təhdidlərin başlıca simasına çevrilən Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenin bugünkü reallığı həzm edib münasibətləri sahmana salmağa təbii ki, üzü yoxdur. Elə bu səbəbdəndir ki, vaxtilə qaz istədiyi Azərbaycana indi Çinə yol əldə etmək xahişi ilə müavini Kaya Kallası göndərir. Brüsseldə deyəsən, bütün yolların Bakıya apardığını anlamağa başlayıblar.

## Siyasi liderlərin ardıcıl Bakı səfərləri

Son bir ay ərzində müxtəlif dövlət liderlərinin Azərbaycana səfərləri Bakının daha bir geosiyasi resursu olan siyasi nüfuzundan xəbər verir. Bu nüfuz Azərbaycanın yeni kapital mənbəyidir və Avropanı mavi yanacaqla təmin etməkdən, yaxud Şərq-Qərb nəqliyyat dəhlizindən daha dividentlidir.

Bu səfərlərin ardıcıllığına diqqət yetirək:

- Gürcüstan Prezidenti Mixail Kavelaşvilinin ilk xarici səfərini Bakıya etməsi Tbilisinin Azərbaycanın şəriksiz regional liderliyini qəbul etməsi deməkdir;
- Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Bakıya səfərinə sırf Berlin-Bakı münasibətləri prizmasından yanaşmaq yanlış olardı. Həm Almaniyanın Aİ-nin əsas sütunlarından biri olması, həm Ştaynmayerin Bakıda verdiyi bəyanatlar bunu deməyə əsas verir ki, o, Azərbaycana ölkəsindən daha çox təmsil etdiyi qitə üçün gəlmişdi;
- Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın səfəri yuxarıda qeyd etdiyimiz kimi, "yanmış körpülər"in bərpası istiqamətində atılmış addımdır;
- İranın siyasi lideri Məsud Pezeşkian da münasibətləri bərpa etmək üçün gəlmişdi. Tehran da ətrafında yaşanan geosiyasi təlatümlər səbəbindən Azərbaycanla bağlı son illərin yanlış siyasətinin reallığı ilə üz-üzədir;
- Qarşıda bizi anons edilən daha iki mühüm səfər - İsrailin Baş naziri Benyamin Netanyahu və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Bakıya gəlişləri gözləyir. Hər iki dövləti Azərbaycanla dərin strateji maraqlar bağlayır. Odur ki, bu səfərlərin əhəmiyyətindən söz açmaq artıqdır. Ancaq bir reallıq da var ki, bu səfərlər tək Azərbaycanla deyil, Türkiyə-İsrail münasibətləri baxımından da əhəmiyyətlidir. Azərbaycan bu gün tək maraqların üst-üstə düşdüyü məkan deyil, həm də onları uzlaşdıran geosiyasi moderatordur.

Yeni dünya nizamının bəhrəsini görməyə başlamışıq...



Rəcəb Tayyib Ərdoğan

Benyamin Netanyahu

# HİNDİSTAN VƏ PAKİSTANI ÜZ-ÜZƏ QOYAN FAKTORLAR

İki ölkə arasında intensivləşən gərginliyi alovlandıran əsas tərəf Hindistandır. Təşkilatçısı bilinməyən terror aktını bəhanə edən rəsmi Nyu-Delhi Pakistanla imzalanan və Dünya Bankının təminatçısı olduğu çaylar üzrə müqavilənin icrasını birtərəfli qaydada dayandırıb.



AZƏR NURİYEV



Asiyanın iki nüvə dövləti - Hindistan və Pakistan arasında müharibə təhlükəsi dünya gündəmini tutub. Hindistanın Pahalqam qəsəbəsində 26 turistin ölümü ilə nəticələnən terror aktı iki ölkə arasında vəziyyəti gərginləşdirib. Hər hansı bir təşkilat bu hücuma görə məsuliyyəti öz üzərinə götürməyib. Hindistan hələ də hücumun kim tərəfindən həyata keçirildiyini müəyyən edə bilməyib. Bununla belə, heç bir fakta və sübuta malik olmadan insanlarda ciddi narazılıq yaradan təhlükəsizlik sahəsindəki boşluqları "ənənəvi yol"la - Pakistanı hədəf göstərməklə ört-basdır etməyə çalışır.

### HİNDİSTANIN SU ŞANTAJI

Bunlar azmış kimi, terror aktını bəhanə edən Nyu-Delhi rəhbərliyi Hind çayları üzrə müqavilənin icrasını dayandırdığını və Pakistan diplomatlarını ölkədən çıxardığını bəyan edib. Halbuki, Hind çayları üzrə müqavilə 1960-cı illərdə imzalanıb və Dünya Bankı bu müqavilənin təminatçısıdır. Bu səbəbdən Pakistan haqlı olaraq hüququ olan suların qarşısının alınmasını müharibə aktı kimi qiymətləndirir. Bu müqaviləyə əsasən, Hind, Çelum və Çenab çayları Pakistana, Ravi, Beas və Sutlej çayları isə Hindistana aiddir. Müqavilə iki ölkə arasında mümkün su müharibəsinin qarşısını alır. Pakistanın kənd təsərrüfatının və içməli su təminatının 80 faizindən çoxu Hind çayından asılıdır. Buna görə də Hindistanın su təchizatını məhdudlaşdırması Pakistan üçün həyati təhlükəsizlik məsələsidir. Milyonlarla insanı susuz qoymaq cəhdi isə ən azından bəşəri cinayət hesab edilir.

## HƏRBİ GÜC BALANSI NECƏDİR?

İndi hər kəsi bir sual düşündürür - iki ölkə müharibəyə nə qədər hazırdır? Hazırda Pakistanın əlində Çinlə birlikdə istehsal etdiyi "JF-17" ilə yanaşı, "F-16"-lar, Hindistanın əlində isə Fransadan aldığı "Rafale" qırıcıları var. Hər ölkə strateji silahlara (raketlər) təxminən bərabər sayda malikdir. İndiyə qədər Pakistanla Hindistan arasında üç müharibə olub. Dördüncü müharibə ilə bağlı fərqli fikirlər mövcuddur.

### 80 İLDİR DAVAM EDƏN GƏRGİNLİK

İki ölkə arasında gərginliyin tarixi 1947-ci ildən başlayır. Səbəb də əhalisinin əksəriyyəti müsəlman olsa da, ərazisi Hindistana verilən Kəşmir bölgəsidir. İlk müharibə 1947-ci ilin oktyabr-dekabrında baş verib. Ştatda müsəlmanlar üstünlük təşkil etsə də, hakim dairələr regionun Hindistana birləşdirilməsi haqqında qərar qəbul ediblər. Bu isə müharibəyə səbəb olub. 1949-cu ilin 27 iyulunda Hindistan və Pakistan cəbhə xətti boyunca atəşin kəsilməsi haqqında müqavilə imzalayıb. Nəticədə Kəşmirin 60 faizi Hindistanın, 40 faizi isə Pakistanın nəzarəti altına keçib. İkinci dəfə 1965-ci ilin avqust-sentyabr aylarında - Pakistan tərəfindən mübahisəli Kəşmir ştatının Hindistanın nəzarətində olan hissəsində üsyan qaldırmağa cəhd göstərilməsi olub. Tezliklə münaqişə iki dövlət arasında sərhəd müharibəsinə çevrilib. BMT-nin işə qarışması nəticəsində hərbi əməliyyatlar başa çatdırılıb. 1971-ci ildə üçüncü müharibə baş verir və bu dəfə səbəb Hindistanın əvvəllər Pakistanın tərkibində olan Banqladeşin müstəqilliyini tanıması olur. Qeyd edək ki, gərginliyi yaradan başlıca amil Hindistanın Kəşmir bölgəsində ən azı 700 minlik ordu saxlaması, burada müsəlman əhalinin sayının azaldılaraq demoqrafik dəyişikliyə nail olmaq cəhdləri, həmçinin güc strukturlarının sadə vətəndaşlara qarşı amansız rəftarıdır. Ölkəsindəki seçki ərəfəsində reytinqi xeyli aşağı düşən Modi hökuməti vəziyyəti öz xeyrinə dəyişmək üçün Pakistanla münasibətlərin gərginləşməsində maraqlı görünür.



## REGİONAL VƏ QLOBAL DİNAMİKA

Hazırkı gərginliyə təkcə Hindistan və Pakistan kontekstində baxmaq doğru deyil. Məsələn, hazırda Hindistanla Çin arasında münasibətlər kifayət qədər gərgindir. 2020-ci ildə Qalvan vadisində baş verən qaynar münaqişə bu gərginliyin simvoludur. Hindistan Çindən iqtisadi asılılığını azaltmaq üçün bu ölkənin texnologiya və infrastruktur şirkətlərinə sərt qaydalar tətbiq edib. Tərəflər arasındakı 130 milyard dollarlıq ticarət həcmi həm iqtisadi zərurətdir, amma həm də strateji rəqabəti gücləndirir. Himalay dağları Hindistan və Çin arasında təbii bufer rolunu oynamasaydı, aydındır ki, bu gərginlik daha ciddi münaqişələrə səbəb ola bilərdi. Digər tərəfdən, Pakistan və Çin arasında "dəmir qardaşlıq" əlaqələri dərinləşir. Çin Pakistanı qabaqcıl döyüş təyyarələri, pilotsuz uçuş aparatları (PUA) və texnologiya ilə təmin edir. Çin Kəşmir probleminin həllində Pakistana dəstək verir.

Qvadar limanı layihəsi Çin-Pakistan əməkdaşlığının əsasını təşkil edir. Qvadar Çinin Hind okeanına açılan qapısıdır. Hörmüz boğazından cəmi 400 kilometr aralıda yerləşən Qvadar strateji mərkəzdir. Hindistan isə ABŞ ilə yaxınlaşır. Mümkün Pakistan-Hindistan müharibəsi Çin və ABŞ arasında "proksi müharibə"yə də çevrilə bilər.

### HİNDİSTAN ŞƏT-İ DƏ ÇƏTİN VƏZİYYƏTDƏ QOYUB

Yeri gəlmişkən, Hindistanla Pakistan arasında artan gərginlik hər iki dövlətin üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatını (ŞƏT) da çətin vəziyyətə salıb. Təsadüfi deyil ki, Kəşmirdəki son olaydan sonra Pakistanın xarici işlər naziri Pekinə gedərək çinli həmkarı ilə geniş fikir mübadiləsi aparıb. Kreml mövcud gərginlikdə hər hansı tərəfi dəstəkləmir. Rusiya Prezidenti Vladimir Putin Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən son sammitində Pakistanın Baş naziri Şahbaz Şəriflə danışıqlar aparıb, bundan sonra Rusiyanın Baş naziri Mixail Mişustin İslamabada səfər edib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# ÖLKƏMİZƏ GƏLƏN TURİSTLƏRİN SAYI AZALIB?

"Bunun müxtəlif səbəbi ola bilər. Müharibə də rol oynaya bilər, təyyarə biletlərinin bahalığı da, ölkənin iqtisadi vəziyyəti də..."



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Gəlmə turizmi bütün dünyada turizm sektorunun prioritet sahələrindən biridir. İqtisadiyyatın ən perspektivli və dinamik inkişaf edən sahəsi olmaqla yanaşı, ölkələrin tanınması istiqamətində də mühüm rol oynayır.

Azərbaycan da təbii sərvətlərin müxtəlifliyi və mədəni-tarixi irs obyektlərinin olması baxımından müxtəlif turizm növlərini inkişaf etdirmək üçün unikal imkanlara malikdir. Zəngin tarixə və infrastrukturun yüksək inkişaf tempinə malik ölkələrə isə əcnəbilərin marağı həmişə böyük olur. Son illər ölkəmizə gələn turistlərin sayının artması da bizim coğrafiyaya marağı əks etdirir.

Təbii ki, bir çox ölkələrin biznes elitaları və əlaqədar qurumları turist axınının artırılmasında son dərəcə maraqlıdır və müxtəlif yollarla turistləri cəlb etməyə çalışırlar. Gəlmə və getmə turizmində statistikanın tez-tez dəyişməsi də turizm sektorundakı bu istiqamətdə rəqabəti nümayiş etdirir.

## DEPUTAT HƏYƏCAN TƏBİLİ ÇALIR

Millət vəkili Vüqar Bayramovun bu ilin ilk rübündə ölkəmizə gəlmə turizmində azalmanın qeydə alınması barədə fikirləri isə mövzu ilə bağlı müəyyən suallar doğurur: ölkəyə gələn turistlərin sayı azalıbmı? Əgər reallıq budursa, səbəb nədir? İqtisadçı deputat fikirlərini əsaslandıraraq ölkəmizə gələn turistlərin sayında əsasən 3 əsas istiqamət üzrə azalmanın qeydə alındığını bildirib: "Azərbaycan üçün gəlmə turizmdə əsas regionlardan olan körfəz ölkələrindən və eləcə də MDB dövlətlərindən gələnlərin sayının azalması ümumi turistlərin sayına mənfi təsir göstərib. Nəticədə, bu ilin ilk rübünü gəlmə turizm azalma ilə başa vurub". Millət vəkili ölkəmizə gələnlərin əsasən Rusiya, Türkiyə, Hindistan, İran, Gürcüstan, Qazaxıstan, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Özbəkistan, Çin, Türkmənistan, Ukrayna, İsrail, Küveyt, Belarus və digər ölkələrin vətəndaşları olduğunu qeyd edib: "Son statistika göstərir ki, gəlmə turizmdə yeni regionların payının artırılması, dayanıqlı turizm məhsullarından istifadə olunması və davamlılığın gücləndirilməsi üçün bu sahədə islahatların dərinləşdirilməsi daha da aktuallaşıb".

V.Bayramovun açıqlaması turizm sahəsində çalışan mütəxəssislər tərəfindən birmənalı qarşılanmayıb, eyni zamanda "azalma, yoxsa artım?" kimi ziddiyyətli sual ortaya çıxarıb. Bəzi turizmçilər gəlmə turizmində azalmanın olduğunu etiraf etsələr də, millət vəkilinin açıladığı statistikanı tamamilə təsdiqləmirlər. Əksinə, bir sıra ölkələrdən gələn turistlərin sayında artımın olduğunu da qeyd edirlər.



## TURİST AXININA MÖVSÜMİ TƏSİRLƏR

Turizm üzrə ekspert Əziz Şiriyev hesab edir ki, ümumiyyətlə, yanvar-fevral və mart aylarında Azərbaycana turist axını həmişə az olur: "Bir neçə il əvvəl mart ayında cənubi azərbaycanlıların gəlməsi ilə bağlı canlanma olurdu. Təxminən 10-15 min azərbaycanlı gəlirdi. Bu, turizmin mart ayından başlamasına səbəb olurdu və statistika dəyişirdi. İndi İrandan ölkəmizə turist az gəlir. Bununla belə, aprel ayından - havalar qızdıqca Bakıda xeyli sayda turist görə bilərsiniz. Bu da mövsümlə əlaqədardır. Hava şəraitinin yaxşı olması hər zaman turizmə təsir edən məqamlardandır".

### BƏZİ ÖLKƏLƏRDƏN GƏLƏNLƏRİN SAYINDA AZALMA OLSA DA...

Gəlmə turizmi ilə bağlı rüblük statistikanın Dövlət Miqrasiya Xidmətindən hələ daxil olmadığını bildirən turizmçi Əfsun Əhmədovun sözlərinə görə, keçən illə müqayisədə bu ilin yanvar ayında gəlmə turizmində artım müşahidə olunub: "Məsələn, keçən il gələn 165.868 nəfər idisə, bu il 172.653 nəfər olub". Turizmçi Rusiya turistlərinin azalmasını təkcə Azərbaycan üzrə deyil, bütün dünya üzrə olduğunu qeyd edir: "Bunun müxtəlif səbəbi ola bilər. Müharibə də rol oynaya bilər, təyyarə biletlərinin bahalığı da, ölkənin iqtisadi vəziyyəti də...". Ə.Əhmədov Türkiyə və İrandan gələn turistlərin sayında müəyyən azalma olduğunu bildirsə də, əksinə, Hindistan, Qazaxıstan, BƏƏ, Asiya ölkələrindən gələn turistlərin sayında artım olduğunu deyir: "Hətta yanvar ayında İsraildən gələn turistlər də artıb. Onlar əvvəllər ölkəmizə o qədər də gəlmirdilər. Ona görə də birmənalı şəkildə gəlmə turizmində azalmanın olduğunu demək olmaz".

## HANSISA XİDMƏTDƏN NARAZI OLAN BİR DƏ GƏLMİR

"Rüblük göstəriciyə görə azalma ola bilər, amma yenə də gəlmə turizmində turistlərin sayı az deyil. Ölkəyə kifayət qədər turist daxil olur", - deyə gəlmə turizm üzrə menecer Vasif Yadigarov bildirir: "Son üç ayda Türkiyədən gələn turistlərin sayı rekord həddə çatıb. Mən bu ay demək olar ki, Türkiyədən gələn turistlərlə çalışmışam. Aprel ayından etibarən Hindistandan böyük qruplarla gəlirlər. Onlar ölkənin ayrı-ayrı bölgələrinə də səyahət edirlər". Turizmçi hesab edir ki, ümumən azalma dünyanın ayrı-ayrı bölgələrində baş verən münaqişələrlə əlaqədar ola bilər: "Bəzi hallarda gələn turistlər, əsasən də Türkiyə və Hindistandan gələnlər ölkədə nəyisə bəyənmir və yenidən gəlmirlər". V.Yadigarov hesab edir ki, bəzən internetdə, müxtəlif platformalarda yayılan mənfi məzmunlu videolar da gəlmə turizminə mane ola bilər: "YouTube" kanalında mənfi istiqamətdə, xüsusən Bakı ilə bağlı çəkilən videoları bloklamaq lazımdır. Çünki istənilən qonaq gəlməmişdən əvvəl internetdə araşdırır, ölkə haqqında məlumatlar əldə edir və sonra gəlir".



Vüqar Bayramov

Əziz Şiriyev

Əfsun Əhmədov

# UZUN FASİLƏDƏN SONRA NİKBİN STATİSTİKA



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Azərbaycanda qohum evlilikləri 2025-ci il iyulun 1-dən etibarən qadağan olunur. Ekspertlər uzun illərdən sonra nikah sayında qeydə alınan artımı həm də bu amillə əlaqələndirirlər.**

Azərbaycanda uzun müddətdir ki, azalan nikah statistikası artmağa başlayıb. Son illər insanlar evlilik qərarını verməkdə çətinlik çəkir, nikahlar azalır, boşanmalar isə artırdı. Amma 2025-ci ilin ilk iki ayında bu neqativlik az da olsa dəyişməyə başlayıb. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 7741 nikah və 3414 boşanma qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 4,0-dan 4,7-yə qədər artıb. Müqayisə üçün qeyd edək ki, 2024-cü ilin yanvar-fevral aylarında 6 739 nikah qeydə alınmışdı və əhalinin hər 1 000 nəfərinə düşən nikahların sayı 4,6-dan 4,0-a düşmüşdü. Maraqlıdır, nikahların sayının artmasının səbəbi nədir?

### MAARİFLƏNDİRMƏ İŞLƏRİ APARILIR

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin baş məsləhətçisi Səmra Əliyeva "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, komitə səlahiyyətləri daxilində ailə siyasətinin həyata keçirilməsi üçün müvafiq addımlar atır: "Mütəmadi olaraq paytaxtda və bölgələrdə maarifləndirmə işləri həyata keçirilir, media ilə ciddi əməkdaşlıq edilir. Ailə dəyərlərinin, düzgün ailə münasibətlərinin təbliği ilə bağlı bir çox televiziya kanallarında komitənin sifarişi ilə hazırlanan sosial çarxlar, ictimai nəqliyyatda elektron vəsaitlər nümayiş etdirilir. Həmçinin gənclər arasında ailənin və nikahın əhəmiyyətinin artırılması məqsədilə Elm və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində bütün növ təhsil müəssisələrində görüşlər keçirilir. Yeri gəlmişkən, Dövlət Komitəsi tərəfindən yeni və çox əhatəli bir layihəyə start veriləcək. Bu layihə də müvafiq dövlət qurumlarının əməkdaşlığı ilə keçiriləcək, 12 regionda təşviqat-təbliğat işlərini əhatə edəcək. Təbii ki, təkcə maarifləndirmə yetərli deyil. Paralel olaraq müvafiq qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi üçün mütəmadi təkliflər paketi tərəfimizdən hazırlanır".



Səmra Əliyeva

## ƏSAS OLAN AÇIQLANAN RƏQƏMLƏR DEYİL

Qurum rəsmisi bildirir ki, ki, müsbət istiqamətdə cüzi bir artım da sevindiricidir. Amma əsas olan rəqəmlərin artması deyil, qurulan ailələrin, bağlanan nikahların dayanıqlı olmasıdır: "Əlbəttə ki, statistik göstəricilər hər zaman stabil qala bilməz. Biz mütəmadi olaraq istənilən sahədə rəqəmlərdə artım, bəzən isə azalma müşahidə edirik. Son illər nikahların sayında ciddi şəkildə azalma, boşanmaların sayında isə artım görünürdü".






## HƏLƏLİK HÜQUQİ QADAĞA YOXDUR

Məlumdur ki, Azərbaycanda əmi, xala, bibi və dayı uşaqları arasında nikah bağlanması 2025-ci il iyulun 1-dən etibarən qadağan olunur. Nikahların qısa müddətdə artmasında bu qadağanın da təsiri danılmazdır. S.Əliyeva vurğulayır ki, bəzən insanlar bu qədər maarifləndirmə işinə baxmayaraq, problemin mahiyyətini dərk etmirlər. Onun sözlərinə görə, qanunun qüvvəyə minəcəyi tarixə qədər kimlərsə qohum nikahlarını tezləşdirə bilərlər: "Bir çox bəhanələr gətirirlər, qərarlarını əsaslandırmağa çalışırlar. Hətta ötən il bu qanun imzalandıqdan sonra bir müddət Dövlət Komitəsinin telefon nömrələri müraciətlərlə dolub daşırdı. Əhalinin qəbuletmə dərəcəsindən asılı olmayaraq, bu dəyişiklik effektiv nəticələr verəcək. İnsanlar qohum nikahlarının yaratdığı fəsadları anlamalıdırlar".

### "ERTƏLƏNMİŞ QƏRARLAR SİNDROMU"

Adətən, insanlar həyati əhəmiyyət daşıyan planlarını yeni ilin başlanğıcında həyata keçirməyə foksulanırlar. Çünki psixoloji olaraq, yeni ildən dəyişikliklər etməyin uğuruna daha çox inanırlar və ertələnmiş qərarlarını icra edirlər.

Klinik psixoloq, psixoterapevt Rövşən Nəcəfov deyir ki, uzun illərdir ki, cəmiyyətimizdə bir növ "ertələnmiş qərarlar sindromu" yaşanırdı: "Pandemiya, iqtisadi qeyri-müəyyənlik və regional gərginlik fonunda ailə qurmaq planları təxirə salınmışdı. İndi insanlarda şərait nisbətən sabitləşdikcə, daxili ehtiyaclar, xüsusilə təhlükəsizlik, sabitlik və mənsubiyyət hissi daha da güclənib. Nikah burada sadəcə hüquqi deyil, emosional sabitlik axtarışının da bir formasıdır.

Psixoloji olaraq, davamlı təbliğat və ailə institutunun ideallaşdırılması insanlarda "yetkinliyin sübutu" kimi nikahı şüuraltı bir məqsədə çevirir. Xüsusilə sosial mediada "xoşbəxt cütlüklər", "romantik ailə həyatı" obrazlarının sıx paylaşılması identifikasiya effekti yaradır. İnsanlar gördükləri bu obrazlarla özlərini müqayisə etməyə başlayır və düşünürlər ki, bəlkə mənim də zamanım çatıb?! Bu isə tələsik və emosional qərarların sayını artıra bilər".

## EMOSİONAL HAZIRLIQ VƏ PSİXOLOJİ YAŞ AMİLİ

Psixoloq da təsdiqləyir ki, qohum evlilikləri sosial baxımdan qəbul olunan mühitlərdə yaşayan şəxslər bu qadağa qüvvəyə minməzdən əvvəl nikahı rəsmiləşdirməyə can ata bilərlər: "İnsanlar gələcəkdə qarşılaşacaqları hüquqi məhdudiyyəti hiss etdikdə, qərarvermə prosesini sürətləndirirlər. Bu, çox vaxt rasional yox, emosional və qorxuya əsaslanan qərar olur, müvəqqəti psixoloji təzyiq və qorxu reaksiyasıdır. Ailə qurmaq kənar təzyiq və ya qorxu ilə deyil, emosional hazırlıq və psixoloji yaşla tənzimlənməlidir. Əks halda, bu ani artım, bir neçə il sonra statistik olaraq boşanmalarla da özünü göstərə bilər".



Rövşən Nəcəfov

DOĞMALAR Kaspi 3 MAY ŞƏNBƏ 2025 9

FUAD POLADOVUN QIZI FƏRİDƏ POLADOVA ATASININ SƏNƏTİ, AİLƏYƏ BAXIŞI, UŞAQLARI İLƏ MÜNASİBƏTLƏRİ HAQQINDA

# "ONUN YOLUNU LAYİQLİ DAVAM ETDİRMƏK İSTƏYİRDİK"

SÖHBƏTLƏŞDİ



Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az



**Görkəmli aktyor Fuad Poladovun qızı Fəridə Poladova:** "Atam özü ilə vaxt keçirməyi sevən insan idi. Öz fikirləri, düşüncələri ilə baş-başa qalmağı xoşlayırdı. Onun sənət həyatı o qədər zəngin idi ki, hətta şəxsi həyatında da bu barədə fikirləşməklə məşğul olurdu".

Tamaşaçıların sevimlisi olan mərhum aktyorumuz, Xalq artisti Fuad Poladovun ölümündən sonra ailə üzvləri mətbuata müsahibə verməyiblər. Aktyorun mətbuatla "məsafəsi" sanki ailəsinə də sirayət edib. Nəhayət, Fuad Poladovun qızı - Fəridə Poladova "Kaspi"yə müsahibə verməyə, atasının pərdəarxası həyatından danışmağa razı oldu. Görkəmli aktyorun necə övladlarını sevən bir ata, necə bir ailə başçısı olmasından, həyatını yarıda qoyan xəstəliyindən danışdı.

## "İŞLƏR ÇOXDUR, SONRAYA QALSIN..."

● **Fəridə xanım, sizinlə görüşməkdən çox məmnunam. Deməkolarmı, müsahibəyə razılığınızla uzun illərin buzunu qırdınız? Bəlkə nəhayət, düşündünüz ki, Fuad Poladov kimi sənətkarlar həqiqətən də xalqın artistidir və onun kimi aktyorların şəxsi həyatı ilə bağlı məlumatlar həm də onu sevən oxucular, tamaşaçılar üçündür...**

● İlk dəfə müsahibə olmasa da, atam haqqında kitab yazıldı. Ondan sonra kitabın əsasında bir müsahibə də hazırlandı və saytlardan birində dərc olundu. Bunun insanlarda böyük maraq doğurduğunu gördüm. Əslində, mən bunun əleyhinə deyiləm, ata da heç vaxt bunun əleyhinə olmayıb. Sadəcə, kimə müsahibə verirsən? Nə barədə danışırsan? Bu, bizim üçün həmişə çox əhəmiyyətli olub. Yəni danışmaq xətrinə danışmaq yox, söylədiklərinin mənası, insanlar üçün maraqlı olması baxımından danışırsansa nə mən, nə qardaşım, nə də anam bunun əleyhinəyik.

● **Hələ orta məktəbdə oxuyanda Fuad Poladovu televiziya tamaşalarından, filmlərdən xoşlayırdım. Tale elə gətirdi ki, jurnalist kimi çalışanda müsahibə üçün zəng etdim. İşinin çoxluğunu, vaxtının azlığını nəzakətlə bəhanə etdi, "sonra zəngləşərik" dedi. Tanıyanlar da deyirdi ki, o, bir az qapalı adamdır, müsahibə verməyi sevmir. Bunun xüsusi bir səbəbi vardımı, ya xarakteri elə idi?**

● Xüsusi səbəbini bilmirəm, amma sizin dediklərinizin şahidi olmuşam. Doğrudan da, ata çox nəzakətli insan idi, xüsusilə qadınlara qarşı. Ona zəng edəndə, hər hansı təklifi kobudluqla rədd etməzdi. Həmişə "işlər çoxdur", "çəkilişlər var, sonraya qalsın" deyərdi. Bilmirəm, bəlkə də o zaman çəkilişlər vardı, amma mən hiss edirdim ki, müsahibə verməyi sevmir. Fikirləşmirəm ki, bu, kaprizli olmağın, ya özünü əlçatmaz göstərmək istəməyinin əlaməti idi. Onun hər bir addımının arxasında öz fikirləri vardı. Yəqin ki, bunun da bir səbəbi vardı. Mən bunu bilməyəcəyəm, amma bir ifadəsi yadıma düşərdi: adam eyni şeyi nə qədər danışar? Yəni belə bir fikir onun ağlından keçərdi: "Mənim deməyə sözüm olanda müsahibə verməyə həmişə açığam". Bəlkə doğrudan da dalbadal müsahibə təklifləri gəlirdi və bir müsahibədən sonra digər müsahibə ona maraqlı görünmürdü. Və yaxud "sonuncu müsahibəni verəndən sonra mənim karyeramda və yaxud həyatımda nələr baş verib ki, bunları cəmiyyətlə bölüşmək istəyim?" fikirləri ürəyindən keçə bilərdi. Yəqin içində eyni suallara cavab vermək qorxusu vardı. Eyni şeyləri bölüşmək ona bir az mənasız gələ bilərdi. O elə bir insan idi ki, hər addımını düşünülmüş halda atırdı. Hərdən qıraqdan ona baxanda mənə elə gəlirdi ki, bütün taleyini özü cızıb və həmin ssenari üzərindən gedir.

## "ROLLARI HAQQINDA DANIŞMAĞI XOŞLAMIRDI"

● **Sonuncu dəfə "Azdrama"nın səhnəsində Fuad Poladovun baş rolda oynadığı "Şah Qacar" tamaşasına baxmışdım. Hətta həmin tamaşaya baxmağa, daha dəqiq desəm, məhz ona baxmağa bir neçə dəfə getdim. Zahiri amiranəliyi rolunu necə də tamamlayırdı. Özü nə deyirdi bu rol haqda?**

● Proaktiv olaraq rolları haqqında danışmağı xoşlamırdı. Hətta tamaşadan sonra evə gələndə, hamımız eyni vaxta gəlsəydik belə, çox vaxt susardı. Qardaşım Ağarəhim onu tənqid etməyi xoşlayırdı. Ancaq hiss edirdim ki, bu söhbətlər atanın xoşuna gəlir.

Şah Qacar rolunu mən də çox sevirəm. O tamaşaya bir neçə dəfə baxmışam. Yaxşı ki, həmin tamaşa mənim bir az böyüdüyüm vaxtlara təsadüf etdi. Onun çox rollarını uşaq kimi izləmişəm, kiçik olmuşam. Hamleti oynayanda beşinci sinifdə oxuyurdum. Napoleonu oynayanda da kiçik idim. O tamaşalara bir az daha anlayan, daha duyan vaxtlarda baxsaydım, təbii ki, başqa cür təsir göstərərdi. Atamın oynadığı tamaşalarda monoloqlarını daha çox xoşlayırdım. "Şah Qaçar"da çox təsirli monoloqlar vardı. Məncə, onun ən böyük bacarıqlarından biri də monoloq vasitəsilə tamaşaçılara təsir etmək, oynadığı qəhrəmanı hərtərəfli göstərmək idi.

● **Heç rejissorların təklif etdiyi rollardan imtina etməsi olurdumu?**

● Bildiyimə görə, dəfələrlə olub... Detallarını bilməsəm də və yaxud yadımda qalmasa da, bilirəm ki, olub. Çünki pyesi qabaqcadan diqqətlə oxuyurdu. Heç vaxt gözübağlı nəyəsə razılıq verməzdi.

● **Sənətşünaslar da deyir ki, Fuad Poladovun təsadüfi rolları yox idi - həm kinoda, həm də teatrda. Sizcə, ona daha çox hansı yaxın idi - kino, yoxsa teatr?**

● Birmənalı olaraq: teatr! İnanmıram, bu sualla bağlı anam və ya qardaşım başqa fikir bölüşsünlər. Kinoya çəkilən vaxtı bəlkə heç biz bilməzdik ki, hansı filmə çəkilir. Yalnız film nümayiş olunanda xəbər tutardıq. Amma teatrda tamaşa olanda biz həmişə bilirdik. Onun əhvalı, hazırlaşmağı, rolunu mənimsəməyi, teatra olan sevgisi - bunu ailə olaraq həmişə aydın hiss edirdik.

## "ÖZÜ İLƏ VAXT KEÇİRMƏYİ SEVƏN İNSAN İDİ"

● **Fuad Poladov unikal aktyor idi. Şəxsi həyatında necə bir adam, ailədə necə bir insan olması da çoxuna maraqlıdır...**

● Çox danışan, çox bölüşən insan deyildi. Məncə, o, özü ilə vaxt keçirməyi sevən insan idi. Öz fikirləri, düşüncələri ilə baş-başa qalmağı xoşlayırdı. Onun sənət həyatı o qədər zəngin idi ki, hətta şəxsi həyatında da bu barədə fikirləşməklə məşğul olurdu. Böyük rollarına hazırlaşması da onun həyatının mühüm bir hissəsi idi. Uşaq olanda görürdüm ki, ata üzünü qırxır, amma öz-özünə danışır, hansısa jestlər edir, balkonda nəsə bir həyat yaşanır. Bilirdim ki, rolunu məşq edir. Yəni sənət evin içində də həyatının bir hissəsi idi. Fiziki olaraq evdə olmağı çox xoşlayırdı. Evdə olanda ünsiyyətdə çox olmaya bilərdi, amma evinə çox bağlı idi. Bizim yaşadığımız evləri çox sevirdi. Axşam vaxtında evə gəlməyi xoşlayırdı. Ən sevdiyi otaq mətbəx idi. Orda oturub çay içərdi, balaca televizoru vardı, ona baxardı, bizlə söhbət edərdi. Onu qapalı - daha çox öz aləmində, səssiz kimi təsvir edərdim, amma içində bir dünya vardı. Uşaqlarına çox bağlı idi. Çox yaxşı ata olub. İndiki müasir ailələrdən bir az fərqli idi. Deyə bilmərəm ki, bizimlə saatlarla söhbət edirdi, oyun oynayırdı, amma bizim həyatımızda baş verənlər onu çox narahat edirdi. Çox ailəcanlı idi. Biz xəstələnəndə ağlı başından çıxırdı. Sağlamlığımıza qarşı çox həssas idi. Onun bizim hər şeyimizin olması uçun çalışmağı aydın görünürdü.

> *"Onun nüfuzunu nəzərə almaq, müəyyənləşdirdiyi standartlara uyğun hərəkət etmək bir məsuliyyət idi. Bizdə həmişə belə bir hiss vardı ki, həyatda onun uşaqları olduğumuza görə nəyəsə nail olmayaq, yalnız öz bilik və bacarıqlarımıza görə seçilək."*

## "ANAM HƏMİŞƏ ÇALIŞIRDI Kİ, ATAMA DƏSTƏK OLSUN"

● **Yeri gəlmişkən, tanınmış və sevilən bir insanın qadını olmaq da asan məsələ deyil. Bunun fəxr tərəfi ilə yanaşı, qısqanclıq tərəfi də olur. Ananız bunu hiss etdirirdimi?**

● Maraqlı sualdır, amma bu suala anam cavab versəydi daha yaxşı olardı... Onlar qısqanclıq tərəfini bizə hiss etdirməyiblər. Yəqin ki, uşaq olduğunuz üçün düz də ediblər. Məncə, anam tərəfindən böyük bir qayğı, böyük bir anlayış olub. Qadın tərəfindən bu anlayışı və dəstəyi görmək atam üçün çox vacib idi. Bilirdi ki, evə qayıdanda onu qayğı, anlayışla gözləyirlər. Əlbəttə, bu, anamdan qurbanlar tələb elədi. Anam işləmirdi, evdar xanım idi. Bu, atamın böyük istəyi idi ki, uşaqları bağçaya getməsin, məktəbə qədər evdə tərbiyə alsınlar, ev yeməyi yesinlər. Anam həmişə çalışırdı ki, nə qədər bacarırsa atama dəstək olsun. Çünki bilirdi ki, o, böyük bir missiya daşıyır.

● **Orta məktəbdə və ya institutda oxuyanda ətrafında Fuad Poladovun qızı olduğunu bilirdilər. Münasibət necə, dəyişirdi?**

● Mənim yaşıdlarım arasında atam çox da tanınmırdı. Onu daha çox yaşlı və orta nəsil tanıyırdı. Hətta həyat yoldaşım belə, atamın tanınmış aktyor olduğunu bilmirdi. Yalnız valideynlərindən soruşandan sonra xəbər tutmuşdu. Düşünsəm ki, həyatda Fuad Poladovun qızı olmaq bizə nə verib, ağlıma çox aydın olaraq gələn bir söz var: məsuliyyət. Həmçinin fəxr hissi - bunlar yanbayan gedirdi. Onun nüfuzunu nəzərə almaq, müəyyənləşdirdiyi standartlara uyğun hərəkət etmək bir məsuliyyət idi. Bizdə həmişə belə bir hiss vardı ki, həyatda onun uşaqları olduğumuza görə nəyəsə nail olmayaq, yalnız öz bilik və bacarıqlarımıza görə seçilək. Həmişə çalışırdıq ki, Fuad Poladovun övladı olduğumuzu gizlədək. Biləndə də istəmirdik ki, buna görə bizə hansısa hörmət olunsun. Biz onun yolunu layiqli davam etdirmək istəyirdik. İstəyirdik ki, heç kəs Fuad Poladovun övladları haqqında pis fikir eşitməsin.



Fotolar: Rüfət Mikayılov/Global Media Group

## "Yol gedərkən sanki ətrafda heç kəsi görmürdü"

● **Sənət dostları ilə münasibəti necə idi? Evinizə qonaq gələnlər olurdumu?**

● Evimizə heç vaxt heç bir sənət dostu gəlməyib. Ümumiyyətlə, evimizdə böyük qonaqlıqlar olmurdu, bu, yalnız ad günlərimizdə baş verərdi. Bir-iki yaxın dostu vardı, bir də qohumlar yığışardı. Aktyorlar, rejissorlar evimizə gəlmirdi. Mən onları ata rəhmətə gedəndən sonra evimizdə gördüm.

● **Şöhrəti necə yaşayırdı? Yəqin ki, küçədə ona yaxınlaşanlar olurdu...**

● Çox olurdu... Yaxınlaşırdılar, sənəti, tamaşaları haqqında fikir bildirirdilər, ya da başlarını yelləyir, sadəcə gülümsəyirdilər. Maraqlısı odur ki, buna daha çox biz fikir verirdik, nəinki özü. Ancaq kimsə ayaq saxlayıb yaxınlaşanda, ona xoş olurdu, danışırdı, gülümsəyirdi. Piyada gəzməyi çox xoşlayırdı, ya da metro ilə hərəkət edirdi. Yol gedərkən sanki ətrafda heç kəsi görmürdü, öz dünyasında olurdu. Ona görə Aygün Aslanlının kitabının adı çox yerində seçilib: "Skafandrlı adam". Yəni atam bayırda gedəndə tamamilə bir skafandrın içində idi. Kosmosda olan kimi yolda öz skafandrında davam edirdi. Bir neçə dəfə gülməli hal olub ki, atamla yolda rastlaşanda bizi də görməyib, yanımızdan keçib. Biz üz-üzə gəlib ona salam vermişik (gülür T.M.).

## "XƏSTƏLİK ONUN ƏN HƏSSAS YERİNİ VURMUŞDU"

● **Sizin sənət seçiminizə qarışırdımı?**

● Sənət seçimimizlə bağlı hər hansı fikir bölüşmürdü. Sadəcə, bizim təhsilli olmağımızın tərəfdarı idi. Bizim uğurlarımızla fəxr edirdi, sevinirdi. Mən universitetə daxil olanda iqtisadi sahəni seçmişdim. İndi isə insan resursları departamentində işləyirəm. bp-də tələbələr üçün yay təcrübəsi proqramına qoşuldum. O vaxt insan resursları ölkəmizdə böyük bir sahə deyildi. Özümü sınamaq istədim. Testləri keçdim və şirkətdə iki aylıq işə düzəldim. Orada təcrübə keçəndə atamın qoltuğuna qarpız sığmırdı. Evə ilk dəfə maaş gətirəndə yadımdadır ki, çox fəxr edirdi. Sonra da ora işə düzəldim və bu gün də davam edirəm. Həyat yoldaşım da orada işləyir, qazma mühəndisidir.



● **Bilirəm ki, bu sual ağrılıdır: xəstə olanda optimizmini qoruyub saxlaya bilirdimi?**

● Təəssüf ki, yox... Optimizmini qoruya bilmədi. Bizim ailə üçün ən ağrılı olanı da bu idi ki, xəstəlik onun ən həssas yerini vurmuşdu: atam xəstə olan kimi səsini itirdi. Bir aktyor üçün səsini itirmək onun karyerası üçün son deməkdir. Xəstəlik onun sənətinə dərhal təsir etməsəydi, bu bir il bəlkə də başqa cür keçərdi.

## "GƏL, HUMAYA BAX, GÖR NECƏ QIZDIR"

● **Ən çox sizə dediyi hansı sözü yadınızda qalıb?**

● Mənə "qızım-duzum" deyirdi. Qardaşım da əsəbiləşirdi: yox bir, istiotum. Qısqanclıq elementləri vardı (gülür T.M.).

● **Həyat indi atanızın yoxluğunu sizə necə hiss etdirir?**

● Onun yoxluğunu çox aydın hiss edirəm. Hətta o hissin mənə ilk dəfə gəlməsi də aydın yadımdadır. O günü heç vaxt unutmayacağam: onda ata sağ idi, amma xəstəliyinin ən ağır vaxtlarını yaşayırdı. Mən də pnevmoniya oldum, hospitala düşdüm. Həmişə xəstələnəndə, həkimin yanında birinci atam olurdu, sonra mən gəlirdim. Mənə qədər o, hər şeyi həll edirdi. Gəlirdim və bilirdim ki, mənə ən yaxşı qayğı göstəriləcək və xəstəlikdən qorxmurdum. O gün mən xəstəxanaya gəldim, yoldaşım evdə idi, bilirdim ki, uşağa baxacaq. Amma atam artıq çölə çıxacaq vəziyyətdə deyildi. Özümü orada çox gücsüz və yalnız hiss etdim. İlk dəfə atasız qaldığımı orada, hələ atam sağ olanda hiss etdim.

● **Bu gün atanız sizi eşitsəydi, ona nə deyərdiniz?**

● O, mənim oğlumu gördü. Oğlumun iki yaşı olanda rəhmətə getdi, amma qızımı görmədi. İndi oğlumun doqquz, qızımın beş yaşı var. Deyərdim ki, "gəl, Humaya bax, gör necə qızdır" (ağlayır... T.M).

● **Fuad Poladovun doğum gününü adətən necə qeyd edirsiniz?**

● Mən atamın ölüm gününü (4 may) qeyd etməyin tərəfdarı deyiləm və qeyd etmirəm. Anamla qardaşım qəbir üstünə gedirlər. Mən isə çox nadir hallarda gedirəm. Adətən ad günlərini - mayın 24-ünü qeyd etməyi xoşlayıram. Ata sağ olanda həmin gün zənglər dayanmırdı. Ailə daxilində - mən, anam, yoldaşım və uşaqlar yığışırıq. Keçən il arzum idi - atamın sevdiyi insanları - bibimi, əmisi oğlunun və qardaşı oğlunun ailəsini bağımızda başıma yığmışdım. Həmin gün gülüb danışaraq atamın doğum gününü qeyd elədik...

# SOCAR LİDERLİYİNİ SAXLAYIR

Bu ilin yanvar-mart aylarında Azərbaycan Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 105,7 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulu ixrac edib.




Bu ilin yanvar-mart aylarında Azərbaycanın dövlət müəssisələri arasında qeyri-neft-qaz ixracı üzrə liderlik həmişəki kimi Dövlət Neft Şirkətinin (SOCAR) Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinə (105,7 milyon ABŞ dolları) məxsus olub. "Report" xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın aprel sayında bildirilir.

Reytinq cədvəlində növbəti yerlərdə SOCAR-ın 57% payla təmsil olunduğu "SOCAR Polymer" MMC (59 milyon ABŞ dolları), "AzerGold" QSC (42,7 milyon ABŞ dolları), Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsindəki "Azəralüminium" MMC (39,7 milyon ABŞ dolları), ilk dəfə SOCAR-ın Qaz İxrac İdarəsi (23,7 milyon ABŞ dolları), "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC (9,6 milyon ABŞ dolları), "Azərbaycan Hava Yolları" QSC (3,8 milyon ABŞ dolları), "Azərenerji" ASC (1 milyon ABŞ dolları), Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti (237,7 min ABŞ dolları) və "Qaradağ Şüşə Zavodu" ASC (59,8 min ABŞ dolları) qərarlaşıb.

### QEYRİ-NEFT İXRACINDAN GƏLİR 19% ARTIB

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın aprel sayında



SOCAR-ın qeyri-neft ixracından gəlirləri ilə bağlı məlumatlar da yer alıb.

Bildirilib ki, bu ilin yanvar-mart aylarında şirkətin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 105,7 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsul ixrac edib. Bu, 2024-cü ilin ilk rübü ilə müqayisədə 16,5 milyon ABŞ dolları və ya 18,5% çoxdur.

Hesabat dövründə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 14,7% artaraq 771,9 milyon ABŞ dolları təşkil edib.

Bu ilin yanvar-mart aylarında SOCAR-ın 57%-lik törəməsi olan "SOCAR Polymer" MMC isə 59 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib. Bu, 2024-cü ilin ilk rübü ilə müqayisədə 2,6 milyon ABŞ dolları və yaxud 4,6% çoxdur.



# "GLOBAL MEDİA GROUP" "PEŞƏKAR MEDİA MƏKTƏBİ"NƏ START VERİB

"Global Media Group" həyata keçirdiyi "Media Akademiyası" layihəsinin növbəti proqramına – "Peşəkar Media Məktəbi"nə start verib.

Layihənin məqsədi gənclərə media sahəsində praktiki-nəzəri bilik və bacarıqlar qazandırmaq, onların peşəkar inkişafını dəstəkləmək, həmçinin, təlimləri uğurla tamamlayan iştirakçıları "Global Media Group"a daxil olan şirkətlərdə işlə təmin etməkdir. Layihə çərçivəsində jurnalistika, SMM, fotojurnalistika kimi təlimlərlə yanaşı, təqdimat bacarıqları, ictimaiyyətlə əlaqələr, vaxtın idarə olunması və digər şəxsi inkişafa yönəlmiş təlimlər də təşkil olunur.

"Peşəkar Media Məktəbi" haqqında gənclərə ətraflı məlumat vermək məqsədilə ölkənin müxtəlif ali təhsil müəssisələrində təqdimatlar təşkil olunub. Tələbələrə "Global Media Group"un fəaliyyəti və "Media Akademiyası" layihəsinin mövcud məktəbləri, həmçinin, yeni fəaliyyətə başlayan "Peşəkar Media Məktəbi" haqqında ətraflı məlumat verilib. Eyni zamanda, tələbələrin sualları cavablandırılıb və məktəbə müraciət edən gənclərlə ilkin müsahibələr təşkil edilib.

Qeyd edək ki, "Global Media Group" Korporativ Sosial Məsuliyyət (KSM) strategiyasına uyğun olaraq, "Medianın Dayanıqlı İnkişafı" fəaliyyət istiqaməti çərçivəsində artıq 2 ildir ki, uğurla həyata keçirdiyi "Media Akademiyası" layihəsi vasitəsilə gənclərin media sahəsində inkişafına töhfə verir. Layihə çərçivəsində artıq Baku TV "Rəqəmsal Media Məktəbi" və Report "Media Məktəbi" fəaliyyət göstərir.

### "GLOBAL MEDİA GROUP" HAQQINDA

"Global Media Group" 2017-ci ildən Azərbaycanda fəaliyyət göstərən ən böyük media-holdinqlərdən biridir. "Global Media Group"a Azərbaycanda və ölkə xaricində fəaliyyət göstərən televiziya kanalları, informasiya agentlikləri, xəbər portalları, qəzetlər və digər şirkətlər daxildir.

# MÜASİR SUVARMA SİSTEMLƏRİNƏ AYRILAN VƏSAİT AÇIQLANIB

2022-2024-cü illərdə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) Azərbaycanda 42 min hektar ərazidə quraşdırılan müasir (pivot) suvarma sistemlərinin maliyyələşdirilməsinə 13,6 milyon manat kredit-lizinq vəsaiti, 93,3 milyon manat güzəştli vəsait ayırıb. "Report" xəbər verir ki, bunu AKİA-nın nümayəndəsi Emil Xasməmmədov Bakıda keçirilən IV Aqrobiznesin İnkişafı Forumunda bildirib. Onun sözlərinə görə, ölkə Prezidentinin ərzaqlıq buğda istehsalı ilə məşğul olan sahibkarlıq subyektlərinin quraşdırdığı müasir suvarma sistemlərinin maliyyələşdirilməsi ilə bağlı fərmanına uyğun olaraq, agentliyə dövlət büdcəsindən əlavə vəsait ayrılıb: "2022-ci ildən buğda əkilmiş 12 min hektar ərazidə müasir suvarma sistemlərinin quraşdırılması ilə bağlı layihələrin maliyyələşdirilməsi üçün 24,6 milyon manat güzəştli vəsait yönəldilib".

E.Xasməmmədov deyib ki, 2022-2024-cü illər ərzində kənd təsərrüfatı texnikası və



avadanlıqlarının maliyyələşdirilməsi məqsədilə 24,5 min ədəd texnika üçün 247,6 milyon manat həcmində güzəştli və 141 milyon manat həcmində kredit-lizinq vəsaiti ayrılıb. Onun sözlərinə görə, eyni dövrdə 21,4 min baş iri və xırda buynuzlu damazlıq heyvanın alınması üçün də 53,6 milyon manat həcmində güzəştli vəsait ayrılıb.

Bundan əlavə, son 3 ildə 7 minə yaxın sahibkarlıq subyektinə 82 milyon manat məbləğində aşağı faizli güzəştli kreditlər verilib.

E.Xasməmmədov qeyd edib ki, kənd təsərrüfatı texnikalarının maliyyələşdirilməsi Kənd Təsərrüfatı Nazirliyinin təsdiq etdiyi siyahıya uyğun həyata keçirilir.

Kaspi
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev
Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 922
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# BANKLAR ÜÇÜN UNİKAL ŞANS

## “FAİZ AZALMALARI TƏKCƏ BU HADİSƏ İLƏ BAĞLI OLMAYACAQ”

Maliyyə Nazirliyi ilk dəfə olaraq yerli banklara 1,5 milyard manat dəyərində depozit yerləşdirib. Ekspertlər bu addımı müsbət qarşılayırlar. Lakin bu yeniliyin kredit faizlərinə ciddi təsir göstərməyəcəyi qənaətindədirlər.

SEVİNC ABBASOVA

Müstəqillik dönəmində ilk dəfə olaraq Maliyyə Nazirliyi ölkə banklarına depozit yerləşdirib. Nazirlik bir milyard manat həcmində sərbəst qalığı dörd sistem əhəmiyyətli bankda üç ay müddətinə, 7.21% orta çəkili faiz dərəcəsi ilə depozitə yerləşdirdiyini bəyan edib. Növbəti hərracda isə vahid xəzinə hesabının 500 milyon manat həcmində sərbəst qalığı kapitallaşma və aktivlərinin məbləği səviyyəsinə görə ölkənin ən iri beş bankında 32 gün müddətinə, 7.04% orta çəkili faiz dərəcəsi ilə depozitə yerləşdirilib.

Bəs, görəsən, büdcə vəsaitlərinin depozit kimi banklarda yerləşdirilməsi bank sektoruna hansı əlavə imkanlar yaradacaq?

### BAZARDA CANLANMA YARANACAQ

Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Emin Qəriblinin sözlərinə görə, bu addım ölkə iqtisadiyyatında və banklarda canlanma yaradacaq: “Bu alət banklar üçün əlavə maliyyə resursu yaradır. Bankların kredit vermək imkanları genişlənir. Bu yatırımdan sonra biz az da olsa banklarda faizlərin enməsini müşahidə edirik. Nəticə etibarilə qərar həm dövlət büdcəsinə əlavə vəsait əldə etmək baxımından müəyyən qədər təsir göstərir, həm də ölkə iqtisadiyyatı və bankların canlanmasına imkan yaradır. Düzdür, sözügedən vəsaitlər əsasən iri banklara yönəldilib. Yəqin ki, Maliyyə Nazirliyi mövcud vəziyyəti hərtərəfli təhlil edərək bu yatırımı edib. Gələcəkdə istisna deyil ki, digər banklara da belə yatırımlar edilsin”.

### “DİGƏR QURUMLAR ÜÇÜN DƏ NÜMUNƏ OLMALIDIR”

Ekspert hesab edir ki, Maliyyə Nazirliyinin təcrübəsi vəsaiti olan digər qurumlar üçün də nümunə olmalıdır: “Məsələn, Dövlət Neft Fondunun da vəsaitləri mövcuddur. Baxırıq ki, həmin vəsaitlərdən xarici banklara depozit yerləşdirilir, amma yerli banklara yerləşdirilmir. Təbii ki, ölkə iqtisadiyyatı da həmin vəsaiti qəbul etməyə hazırlıqlı olmalıdır. Əgər krediti alıb istehlak kreditləri kimi mənimsəyiriksə, bu, iqtisadiyyatda elə də böyük effekt verməyəcək”.

### “BANKLAR SİYASƏTLƏRİNİ DƏYİŞMƏLİDİR”

E.Qəriblinin fikrincə, kredit faizlərində kəskin azalma ehtimalı çox aşağıdır: “Biz müşahidə edirik ki, depozit yerləşdirilməsindən sonra bu azalma heç yarım faiz də deyil. Bu da qısamüddətli prosesdir. Əgər bir neçə qurum bu tipli addımlar atarsa, faizlərdə nəzərəçarpacaq endirimlər baş verə bilər. Maliyyə bazarlarına etibar artar, bankların reytinqi yüksələr. Eyni zamanda, bu etibar gələcəkdə digər yerli və xarici təşkilatları da ölkə iqtisadiyyatına daha çox investisiya yatırmağa sövq edər”.

E.Qəribli gələcəkdə dövlət tərəfindən kiçik banklara da depozit yerləşdirilməsini istisna etmir: “Banklar öz fəaliyyətlərinə yenidən baxmalı, bu resursların cəlb olunması üçün siyasətlərini dəyişməlidir. Çünki bizdə elə banklar var ki, yerində sayır, müasir dövrün tələblərinə cavab vermir”.

Ekspert Emin Kərimov bildirir ki, bu alətin banklara verilməsi müsbət haldır: “Bu, banklar üçün unikal şansdır və bazarda əlavə canlanma yaradacaq. Bu yolla yerli bankların daha ucuz vəsait əldə etməsi mümkün olub. Banklar xarici investorlara əlavə biznes plan vermədən hazır depozit cəlb ediblər. Bu vəsait imkan verəcək ki, banklar öz cari planlarını rahat şəkildə yerinə yetirsin”. Ekspert hesab edir ki, sözügedən alət kredit faizlərinin aşağı düşməsinə təsir göstərə bilər: “Sadəcə, faizlərin aşağı salınması mücərrəd və mürəkkəb prosesdir. Çünki bu, təkcə depozit məsələsindən asılı deyil. Burada bazar konyunkturası, qiymət tənzimləmələri, bankın gəlirliliyi, inflyasiya həcmi və sair proqnozlar nəzərə alınır. Ola bilsin ki, il sonuna və ya müəyyən bir dövrdən sonra faiz azalmaları olsun. Amma faiz azalmaları təkcə bu hadisə ilə bağlı olmayacaq”.

### QISAMÜDDƏTLİ DEPOZİTLƏR TƏZYİQ YARATMAQ GÜCÜNDƏ DEYİL

İqtisadçı Eldəniz Əmirov hesab edir ki, Maliyyə Nazirliyinin sistem əhəmiyyətli banklara yatırdığı depozitdən sonra kredit faizlərində ucuzlaşmanın baş verəcəyini gözləmək doğru deyil: “Bu gün depozit portfeli təxminən 40 milyard manatdır. Bir müddət əvvəl bu portfel 38 milyard manat olandakı faizlərlə 40 milyard manat olandakı faizlər arasında ciddi faiz endimi yox idi. Deməli, depozit portfelinin indi 2-3 faiz artması kredit faizlərinə kəskin və davamlı təzyiq yaratmaq gücündə deyil. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Maliyyə Nazirliyi bu vəsaitləri qısa müddətə, əsasən 1-3 ay intervalları ilə yerləşdirir. Halbuki bank kreditləri uzun müddətə, yəni bir neçə il üçün verilir. Deməli, qısamüddətli depozitlərin uzunmüddətli kredit faizlərinə davamlı təsir göstərməsi mümkünsüzdür. Eyni zamanda, kredit faizlərinə təsir edən tək amil banklardakı likvidlik deyil. Pul siyasəti, makroiqtisadi risklər, inflyasiya gözləntiləri və sair bu məsələdə ciddi rol oynayır”.

Ekspert bununla yanaşı, Maliyyə Nazirliyinin addımını doğru sayır. Onun fikrincə, növbəti illərdə depozitlər yalnız sistem əhəmiyyətli banklara deyil, müəyyən mütənasiblik mexanizmləri çərçivəsində digər banklara da həvalə edilməlidir: “Bu, bank sektorunda rəqabət mühitinin qorunması baxımından çox önəmli olar”.









## “Trendyol” 50 manatdan yuxarı sifarişlərdə çatdırılmanı pulsuz etdi

Dünyanın əsas e-ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması “Trendyol” 50 AZN və ondan yuxarı məbləğdə olan sifarişlər üçün Azərbaycana çatdırılma xərclərini ləğv edib. Onlayn alış-veriş həvəskarları qeyd olunan və ondan yuxarı məbləğdə məhsul sifariş etdikdə pulsuz çatdırılmadan, o cümlədən evə pulsuz çatdırılmadan yararlana bilirlər. Bundan əlavə, ‘’Trendyol”dan ilk dəfə sifariş verən bütün istifadəçilər sifariş məbləğindən və məhsul sayından asılı olmayaraq, birbaşa ünvana çatdırılma üçün ödəniş etmir. 50 AZN-dən aşağı məbləğdə olan sifarişlər üçün də yenilənmiş çatdırılma tarifləri tətbiq olunur: “Gəl al” nöqtəsi üçün 3.99 AZN, evə çatdırılma üçün isə 6.99 AZN sabit ödəniş edilir”.

“Trendyol” öz istifadəçilərinə tekstil məhsullarından elektronikaya, uşaq qidalarından ev dekorasiyasına qədər 1500-dən artıq kateqoriyada məhsul təqdim edir.

Hazırda “Trendyol”un Azərbaycanda 2 milyondan çox müştərisi var. Son iki ildə “Trendyol” tətbiqi Azərbaycanda ən çox yüklənən mobil tətbiq olub.

# TƏMİZLİK VASİTƏLƏRİ NECƏ İSTEHSAL OLUNUR?



Azərsun Kağız Karton İstehsalat Korporasiyasına mediatur təşkil olunub. Jurnalistlərə istehsal olunan markalar və bu məhsulların keyfiyyət standartları barədə geniş məlumat verilib.

Azərsun Kağız Karton İstehsalat Korporasiyasının nəzdində fəaliyyət göstərən Təmizlik Vasitələri Fabrikində jurnalistlər üçün görüş təşkil edilib. Görüş çərçivəsində, media nümayəndələrinə fabrikin istehsal prosesi ilə yaxından tanış olmaq imkanı yaradılıb.

Eyni zamanda, istehsal olunan markalar və bu məhsulların keyfiyyət standartları barədə geniş məlumat verilib. 2022-ci ildən fəaliyyətə başlayan müəssisənin çox qısa müddət ərzində Azərbaycanda təmizlik vasitələri sahəsində aparıcı mövqeyə yüksəldiyi vurğulanıb.

Hazırda fabrikin illik istehsal gücü 22 min ton təşkil edir və bu məhsullar istehlakçılar tərəfindən yüksək qiymətləndirilir. Fabrikin müasir texnologiyalarla təchiz olunmuş istehsal xəttində İtaliya və Türkiyədən gətirilmiş ən qabaqcıl avadanlıqlardan istifadə olunur. Müəssisənin laboratoriyasında bütün məhsullar keyfiyyət nəzarətindən keçir.



## Ekoloji cəhətdən təmiz məhsullar

Bu, istehsal olunan məhsulların yüksək standartlara cavab verməsinə və müştəri məmnuniyyətini təmin etməsinə zəmin yaradır.

Eyni zamanda təmizlik məhsullarının seçilməsində dayanıqlıq və ətraf mühitə təsir amillərinə xüsusi diqqət edilir. Dayanıqlı məhsullar yenidən emal oluna bilən materiallardan hazırlanır və tərkibində ətraf mühitə zərər verə biləcək kimyəvi maddələr minimuma endirilir. Ekoloji cəhətdən təmiz məhsullar təbiətə zərər vermədən parçalanır və su hövzələrini çirkləndirmir. Bu cür məhsullar həm ev təsərrüfatlarında təhlükəsiz istifadə imkanı yaradır, həm də ekosistemin qorunmasına töhfə verir.

Heyvanlar üzərində test olunmayan bu cür məhsullar həm canlıların, həm də ölkəmizin rifahını nəzərə alan məsuliyyətli istehlak nümunəsidir. Təmizlik vasitələri fabrikində “Crystalex”, “Wipelex”, “Pure Sense”, “OxyWhite” və “Praxi”, “Biodax” kimi geniş çeşiddə məhsullar istehsal olunur. Bu məhsullar arasında qab yuyucu şampunlar, maye sabunlar, şüşə təmizləyicilər, ağardıcılar, dezinfektantlar və səth təmizləyiciləri kimi gündəlik məişətdə istifadə olunan müxtəlif təmizlik vasitələri mövcuddur. Hər bir məhsulun formulları, istifadəçinin ehtiyaclarına cavab verəcək şəkildə hazırlanıb və alıcılar tərəfindən yüksək qiymətləndirilir.

Qeyd edək ki, məhsullar keyfiyyəti, effektivliyi, sərfəli qiymətləri ilə alıcıların diqqətini çəkib və onların etimadını qazanıb. Görüşdə Təmizlik Vasitələri Fabrikinin sektordakı gələcək hədəfləri və planları barədə jurnalistlərə məlumat verilib. Fabrik rəhbərliyi gələcəkdə daha çox məhsul çeşidi istehsal etməyi və müştəri tələblərinə uyğun olaraq istehsal gücünü daha da artırmağı planlaşdırdıqlarını bildirib.

# “NAR”IN DƏSTƏYİ İLƏ TƏLƏBƏLƏR ÜÇÜN TƏLİMLƏR KEÇİRİLDİ

Sərfəli təklifləri və regionlara diqqəti ilə seçilən “Nar” Gəncə şəhərində yerləşən Azərbaycan Texnologiya Universitetinin (ATU) tələbələri üçün təlimlər təşkil edib. Bu təşəbbüs tələbələrin peşəkar bacarıqlarını inkişaf etdirmək və onların iş bazarına hazırlığını artırmaq məqsədini daşıyır.




Təlimlərdə mobil rabitənin əsasları ilə bərabər, əmək bazarında təcrübə qazanmaq, həmçinin, uğurlu karyera hədəflərinin seçilməsi istiqamətində faydalı biliklər təqdim edildi.

Bundan başqa, universitetin nəzdindəki Nar Laboratoriyasının avadanlıqlarının təqdimatı və işləmə prinsipləri ilə tanışlıq məqsədilə, universitetin müəllim heyətinə xüsusi təlim keçirildi. Bu təlim sayəsində tələbələr mobil rabitə şəbəkəsini təhsil aldıqları müddətdə öz müəllimlərindən öyrənə biləcək və təhsillərini təcrübəli kadr kimi başa vuracaqlar. Təlimlər “Nar”ın Korporativ Sosial Məsuliyyət strategiyasının təhsil istiqaməti üzrə və ATU ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir.

“Nar”ın məqsədi universitetin tələbələrini əsl peşəkar kimi yetişdirərək Azərbaycanın əmək bazarı üçün mütəxəssis hazırlamaq və ölkənin mobil rabitə sahəsinin inkişafına töhfə verməkdir.

“Nar”ın həyata keçirdiyi təhsilyönümlü sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# QƏZALI BİNALARIN SÖKÜLMƏSİ NİYƏ LƏNGİYİR?

Bakıda qəzalı binaların sökülməsi məqsədi ilə 2025-ci ilin dövlət büdcəsində 50 milyon manat vəsait nəzərdə tutulub. Köhnə və qəzalı binaların sökülməsinin ləngliyini ekspertlər həm maliyyə, həm də sərt qaydalarla əsaslandırırlar.

SEVİNC ABBASOVA

Hökumət qəzalı vəziyyətdə olan binaların son statistikasını açıqlayıb. Nazirlər Kabinetinin 2024-cü il üzrə hesabatında əksini tapan məlumata görə, Bakı şəhəri üzrə 187 ünvanda yerləşən 6,1 min mənzil, Sumqayıt şəhəri üzrə 21 ünvanda yerləşən 464 mənzil və Gəncə şəhəri üzrə 11 ünvanda yerləşən 708 mənzil olmaqla, ümumilikdə qəzalı binalara dair 219 ünvan üzrə 7,3 min mənzillə bağlı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilmiş siyahılar təhlil edilib və məsələnin həlli üzrə aidiyyəti dövlət orqanlarının iştirakı ilə İşçi qrup yaradılıb. Bakı şəhəri üzrə 92 ünvanda inventarizasiya işləri başa çatdırılıb, digərləri üzrə isə bu işlər müxtəlif mərhələlərdə davam etdirilir. Bu istiqamətdə 2025-ci ilin dövlət büdcəsində 50 milyon manat vəsait nəzərdə tutulub.

Bəs, görəsən, qəzalı binaların söküntüsü niyə ləngiyir?

## "İŞƏ SAHİBKARLAR CƏLB OLUNMALIDIR"

Millət vəkili Fazil Mustafanın sözlərinə görə, təkcə Sabunçu rayonu və Bakıxanov qəsəbəsində təqribən 209 qəzalı bina mövcuddur. Onlardan cəmi 47-nin qəzalı vəziyyətdə olduğunu təsdiq edən akt tərtib edilib: "Vəsait olmadığı üçün digər binalarla bağlı belə akt tərtib edilməyib. Qəzalı vəziyyətdə olan iki və üç mərtəbəli 174 binanın sakinləri bu məsələyə ancam çəkilməsini gözləyir. Sabah hansısa hadisə baş verəndə sonradan peşmançılığını çəkməyək deyə, indidən bu problemin həlli istiqamətində ciddi fəaliyyət göstərməliyik. Məsələnin həlli sahibkarların bu işə cəlb olunmasıdır. Amma bu, stimullaşdırılmalıdır. Digər tərəfdən, hazırda qəzalı binaların sakinlərinə hər kvadratmetr üçün 1300 manat verirlər. Üçotaqlı mənzildə yaşayan vətəndaş alacağı pulla gedib ev ala bilmir. Çünki ona verilən məbləğ 80-100 min manatdır, amma bazarda real qiymət 200 min manatdır".

## TİKİNTİ ŞİRKƏTLƏRİNƏ GÜZƏŞT

Daşınmaz əmlak məsələləri üzrə eksperti Elnur Fərzəliyev hesab edir ki, bütün qəzalı binalarla bağlı monitorinq aparılmalıdır: "Qəzalı binalar mümkün qədər qısa vaxtda sökülməli və yaxud söküləcəyi günə qədər həmin binalarda təmir-bərpa işləri aparılmalıdır. Təbii ki, qısa müddətdə bütün qəzalı binaların sökülməsi qeyri-mümkündür. Belə binalar əsasən özəl şirkətlər tərəfindən sökülməlidir".

Mütəxəssis söküntü prosesinin yubanmasını müxtəlif səbəblərlə bağlayır. Onun fikrincə, özəl sektorun dəstəyi olmadan dövlət bu işin öhdəsindən gələ bilməz: "Doqquzmərtəbəli binaların sökülməsi tikinti şirkətlərinə sərf etmir. Bu baxımdan, ən yaxşısı tikinti şirkətləri üçün müəyyən güzəştlərin tətbiq olunmasıdır. Çünki bu gün tikinti şirkətlərinin qarşısında əngəllər mövcuddur. Bu əngəllər aradan qaldırılmalıdır ki, işlər yubanmasın, tikinti şirkətləri söküntüdə maraqlı olsunlar. Həmin şirkətlərə vergi güzəştləri, icazələrin alınmasında müəyyən imtiyazlar verilə bilər".




## YAŞAYIŞ FONDUNUN 10-15 FAİZİ YARARSIZDIR

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc isə bildirir ki, artıq istismarı mümkün olmayan binaların söküntü prosesinə start verilib: "Həmin binalardakı mənzillər qiymətləndirilir, vətəndaşlara kompensasiyalar ayrılır və ya müvafiq ərazilərdə mənzillər təklif olunur. Təbii ki, mövcud problemin həllinə birdən-birə nail olmaq qeyri-mümkündür. Bununla bağlı 2025-ci ilin büdcəsindən ilkin olaraq 50 milyon manatın ayrılması nəzərdə tutulub".

V.Oruc onu da vurğulayır ki, hazırda yaşayış fondunun təxminən 10-15 faizi yararsız vəziyyətdədir: "İlkin olaraq 1-2 mərtəbəli yararsız binalar söküləcək və onların yerinə yeniləri tikiləcək. Düşünürəm ki, bu situasiya ölkənin daşınmaz əmlak bazarına da müsbət təsir göstərəcək".

### RESURSLAR MƏHDUDDUR

Əmlak məsələləri üzrə ekspert Elnur Azadov bildirir ki, bu, həm ölkə iqtisadiyyatı, həm də vətəndaşlar üçün mühüm məsələdir: "Çünki son yüz ildə Bakıda inşa olunan yaşayış fondu köhnəlib. Həmin binalar kütləvi şəkildə yenilənməlidir. Amma nə hökumətin, nə də özəl sektorun 16 minə yaxın köhnəlmiş yaşayış fondunu bərpa etməyə resursu yoxdur. Məsələn, paytaxtın birinci mikrorayonunda sakinlər uzun illərdir ki, təhlükəli binalarda yaşayırlar. Nazirlər Kabineti hələ 2017-ci ildə sakinlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qərar verib. Qərarın verilməsindən səkkiz il keçməsinə baxmayaraq, ərazidə heç bir iş görülməyib. Halbuki orada cəmi 40 bina, 1800-ə yaxın mənzil var. Bu işin həyata keçirilməsi üçün azı 50 il vaxt lazımdır. Hazırda dövlət üçün əsas prioritet 30 il işğal altında qalmış Qarabağın yenidən qurulmasıdır".

Ekspert işlərin yubanmasının əsas səbəblərindən birini inşaat normativlərinin sərtləşdirilməsində görür: "Bu məsələ tikinti şirkətlərinin üzərinə düşür. Amma 2018-ci ildən sonra inşaat normativləri dəyişib. İnşaat həcmi iki dəfə azalıb. İnşaat şirkətlərinə çoxmənzilli binanı sökərək yeni yaşayış kompleksi tikmək sərf etmir. Ölkədə yüzə yaxın tikinti şirkəti var. Onlardan cəmi 3-5-nin maliyyə imkanları mövcuddur. Tikinti şirkətləri son beş ilə yaxındır ki, sərəncamlar əldə edə bilmirlər. Resursları məhduddur. Bu baxımdan tikinti şirkətlərinin inkişafı üçün müvafiq şərait yaratmaq lazımdır. Bizdə tam əksi baş verir. İnşaat normativləri o qədər sərtləşib ki, tikinti şirkətləri işləyə bilmirlər ".



# RƏSMİ SERVİS, YOXSA "ÖLÜXANA"?



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Avtomobil üçün ehtiyat hissəsinin haradan alınması büdcədən asılıdır. Kimisi servisə üz tutur, kimisi "ölüxana"ya. Ekspertlər bu məsələdə aldadılma riskinin yüksək olduğunu deyirlər.**



Bu ilin yanvar-fevral aylarında Azərbaycan 353 milyon 777,12 min ABŞ dolları dəyərində nəqliyyat vasitələri və onların hissələrini idxal edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 25 milyon 913,88 min ABŞ dolları və yaxud 7,9 faiz çoxdur. Rəqəmlərdən də görünür ki, avtomobil ehtiyat hissələrinə çəkilən xərc və tələb artmaqdadır. Bəs sürücülər bu ehtiyat hissələrini əsasən haradan əldə edirlər? Son dövrün tələbi halına gələn Çin avtomobillərinə ehtiyat hissəsi tapmaq olurmu?

### "ÖLÜXANA"LAR TARİXƏ QOVUŞACAQ"

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyası İdarə Heyətinin sədri Eyyub Əliyevin fikrincə, bazara daxil olan avtomobillərin və onların ehtiyat hissələrinin artması son illər bu sektorda olan islahatlar, ölkəmizdə həyata keçirilən utilizasiya proqramı, ekoloji təmiz nəqliyyat vasitələrinə tətbiq edilən güzəştlərin nəticəsidir: "Ölkəmizə yaşı ondan artıq olan avtomobillər daxil olmur. Yeni avtomobillər onların ehtiyat hissələrinin də gətirilməsinə səbəb olur. Son zamanlar daha çox gələn ehtiyat hissələri yeni avtomobillərə aiddir. Bu ehtiyat hissələrini həm rəsmi dilerlər, həm də bu məhsulların satışı ilə məşğul olan mağazalar, şirkətlər ölkəmizə idxal edirlər. Artıq ölkəmizə gətirilən yeni avtomobillər üçün qapı-qapı gəzərək ehtiyat hissəsi axtarmağa ehtiyac yoxdur".

E.Əliyev deyir ki, avtomobilin yaşına əsasən ehtiyat hissələrinin tapıldığı məntəqələr dəyişir: "Dilerlər və mağazalardan başqa ölkəmizdə "ölüxanalar" da mövcuddur. "Ölüxanalar" daha çox yaşı ondan yuxarı olan avtomobillər üçündür. Yaşı az olan avtomobillər üçün insanlar yeni ehtiyat hissələri almağı daha üstün tuturlar. Hətta elə insanlar var ki, avtomobilinin yaşı ondan yuxarıdır, amma yeni ehtiyat hissəsi alır. Düşünürəm ki, "ölüxana"lar bir müddətdən sonra tarixə qovuşacaq. Daha çox klassik avtomobillər üçün fəaliyyət göstərəcək. Avtomobil parkımız yeniləndikcə, köhnə maşınlar utilizasiya prosesinə getdikcə, artıq "ölüxana"lara da ehtiyacımız olmayacaq".

## "İNSANLARA ORİJİNAL ADI İLƏ UCUZUNU SATIRLAR"

Nəqliyyat məsələləri üzrə ekspert Adil Nəbiyevin sözlərinə görə, avtomobil ehtiyat hissələrinin idxalı artsa da, burada aldanmaq da mümkündür: "Ölkəmizə bir neçə formada ehtiyat hissələri gətirilir. Bu ehtiyat hissələri orijinal, orta, zəif olaraq kateqoriyalara bölünürlər. Bir çox hallarda sürücülər aldadılır. Məsələn, orijinal adı ilə insanlara saxta məhsullar satırlar. Hətta qablaşdırması belə orijinalından fərqlənmir. Burada ehtiyat hissələrini gətirən sahibkarlardan da çox şey asılıdır. Elə işbazlar var ki, qəsdən daha keyfiyyətsiz və ucuz məhsullar sifariş edirlər. Orijinal ehtiyat hissəsi 400-500 manatdırsa, saxtası 20-30 manata başa gəlir. Onlar da insanlara orijinal adı ilə ucuzunu satırlar. Bunun da səbəbi daha çox ehtiyat hissəsi satmaq hərisliyindən irəli gəlir. Bu kimi hallar hətta məşhur firmalarda da ola bilir".



Eyyub Əliyev

## KÖHNƏSİ DAHA ETİBARLIDIR?

A.Nəbiyevin fikrincə, bəzi ehtiyat hissələri var ki, onları ikinci əl almaq insanlara daha çox sərf edir: "Mağazalardan və yaxud "ölüxana"dan ehtiyat hissəsi əldə etmək əsasən insanların büdcələrinə görə olur. Kimin imkanı çatırsa, orijinal məhsula, kimin imkanı zəifdirsə, ikinci ələ müraciət edir. "Ölüxana"larda ehtiyat hissələri adətən xaricdən gələn avtomobillərin üzərindən sökülərək satılır. Yəni, elə orijinal məhsul hesab edilə bilər. Daha az istifadə olunmuş avtomobildən sökülmüş ehtiyat hissəsini uzun müddət istifadə etmək mümkündür. Hətta demək olar ki, yeni adı ilə aldığımız ehtiyat hissələrindən də davamlı olur. Yeni adı ilə aldıqlarımıza isə tam etibar edə bilmirik. Bəzi elektronika ehtiyat hissələrinə isə ümumiyyətlə zəmanət verilmir. Məhsulu maşına quraşdırdıqdan sonra işləmədikdə qaytarmaq da mümkün olmur".

### "ÇİN AVTOMOBİLLƏRİNİN EHTİYAT HİSSƏLƏRİ ÇOX AZDIR"

Ekspert ölkəmizdə yeni fəaliyyət başlayan avtomobil markalarının ehtiyat hissələri məsələsinə də toxundu: "Çin avtomobillərinin ehtiyat hissələri hələ ki, çox azdır. O səbəbdən də Çin avtomobilləri qəza etdikdə sürücülər aylarla gözləməli olur ki, ehtiyat hissələri idxal edilsin. "Ölüxana"larda isə hələ ki, Çin maşınlarının ehtiyat hissələrini tapmaq çətin məsələdir. Çünki həmin avtomobillər yenidir".

## XANIM SÜRÜCÜLƏR DAHA ÇOX ALDADILIR



A.Nəbiyev sürücülərə məsləhət gördü ki, aldanmamaq üçün tanıdıqları maşın ustalarına müraciət etsinlər: "Çünki onlar ehtiyat hissələrini sürücülərdən daha yaxşı tanıyırlar. Ustasız özbaşına aldıqda isə çox zaman aldadıla bilirik. Xüsusən də xanım sürücülərdə bu hal daha çox müşahidə edilir. Onların maşınlardan çox da anlayışı olmadığı üçün işbazlar rahatlıqla saxta məhsulları satmağa çalışırlar".

### YENİ SÜRÜCÜLƏRƏ MƏSLƏHƏT

Ekspertin fikrincə, rəsmi servis mərkəzləri hər bir halda daha güvənlidir: "Amma kim ki, hələ ustalarla əlaqə yaratmayıb, sürücülükdə yenidir, tanıdığı biri yoxdursa, həmin şəxslər avtomobillərin rəsmi servis mərkəzlərinə üz tutsunlar. Servisdə avtomobil təmiri daha bahadır, amma vətəndaşları aldatmırlar. Onların təqdim etdikləri məhsulların keyfiyyəti digərlərindən daha yüksək olur. Gördükləri işə zəmanət də verirlər. Vətəndaş da bilir ki, dəyişdiyi ehtiyat hissəsini uzun müddət istifadə edə biləcək".



Adil Nəbiyev

# MÜŞFİQ OCAĞININ BİTMƏYƏN DƏRD-SƏRİ

Nakam şairimiz Mikayıl Müşfiqin Xatirə Muzeyi sonuncu intensiv yağışlardan sonra fəaliyyətini dayandırıb. Səbəb muzeyin qarşısından axan Tuğ çayı üzərindəki körpünün dağılmasıdır. Amma problemlər yalnız təbiətin şıltaqlığı ilə bağlı deyil...

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Martın sonlarında Xızı rayonuna səfərimiz zamanı nakam şairimiz Mikayıl Müşfiqin Xatirə Muzeyinə də baş çəkdik. Ərazidə yeganə tikili olan muzeyi ziyarət edəndə nə qədər xoşumuza gəldisə, bir o qədər də məyus olduq. Böyük şairin təlatümlü taleyi kimi xatirəsinə həsr olunan muzeyin də mükəmməl olmayan xidməti və ümumi vəziyyətini nə görkəmli şairin adına, nə də poeziyasının böyüklüyünə yaraşdırdıq.

Səfərimizdən bir ay keçmiş yağış suları nəticəsində muzeyin qarşısındakı körpünün uçması, eləcə də muzeyin fəaliyyətini dayandırması xəbəri şairin doğum günü (5 iyun) ərəfəsində yazacağımız yazını daha da tezləşdirdi.

Əslində muzeyin bağlanmasına səbəb olan amillər bizim müşahidələrimizdən o yana keçmədi. "Yağan yağışlardan sonra Mikayıl Müşfiqin Xızıda yerləşən Xatirə Muzeyi yararsız hala düşüb. Bir neçə gün əvvəl sel yenidən həyətdəki körpünü aparıb",- deyə xəbərlərdə qeyd edildi. Muzey bağlanmamışdan əvvəl son ziyarətçilərdən biri kimi baş verən hadisənin şəraitə adekvat olduğuna şübhəmiz qalmadı.

### 200-DƏN ÇOX EKSPONAT, 53 KVADRATMETR OTAQ

Təəssüratlarımıza əvvəlcə muzeydən başlayaq.

Xatirə Muzeyi 1988-ci ildə Müşfiqin 80 illik yubileyi münasibətilə Xızının Sayadlar kəndində yaradılıb. Bu muzey böyük şairin ata ocağı sayılır. Muzey Xızıdakı məşhur rəngli dağların ətəyində yerləşir. Üzbəüz dağın üzərində şairin məşhur "Oxu tar!" misrası yazılıb. Yolun kənarında isə Mikayıl Müşfiqin böyük portreti yer alıb. Muzeyə aparan yolda körpünü, altından axan bulanıq Tuğ çayını, pillələrin uçuq-sökük vəziyyətini, təmirsiz yolu nəzərdən keçirib muzeyə daxil oluruq.

Muzeyin həyətində ağaclar, gül-çiçək əkilib, skamyalar qoyulub. Gələn qonaqları heykəltəraş Münəvvər Rzayevanın muzeyə təqdim etdiyi şairin tuncdan yonulan büstü qarşılayır.

Yeddi əməkdaşı olan muzey cəmi bir otaqdan – 53 kvadratmetrlik ekspozisiya zalından ibarətdir. Otağın küncündə qoyulan köhnə sobada közərən odunlar ərazidə qaz olmadığından xəbər verir. Əraziyə su da çəkilməyib. Pəncərə ağzına düzülən su doldurulmuş butulkalar da bu problemdən xəbər verir.

Muzeyin əməkdaşı ekspozisiyada abidə daxil olmaqla 221 eksponatın olduğunu bildirdi. Nümayiş etdirilən eksponatlardan başqa əşyaları saxlamağa isə fond yoxdur. Əşyalar muzeyə Mədəniyyət Nazirliyi tərəfindən verilib. "Bu eksponatlar orijinal deyil, əsli Əlyazmalar İnstitutunda saxlanır. Müşfiqin heç bir şəxsi əşyası qalmayıb. Repressiya olunanda bütün əşyaları yandırılıb. Şairin Xızıda evi olub, amma o ev də artıq yoxdur. Müşfiqin xatirəsini əziz tutaraq yaşadığı ərazidə Xatirə muzeyi yaradılıb".

Muzeydə şairin uşaqlıq və gənclik illərini, ailəsini, görüşlərini və s. əks etdirən maraqlı fotolar, sənədlər yer alıb. Şairin haqqında açılan 12493 saylı cinayət işinin surəti, Mirvari Dilbazinin Mikayıl Müşfiqə həsr etdiyi şeirdən bir parça da muzeydə nümayiş etdirilir: "Ərazidəki rəngli dağlara baxmağa gələn turistlər də muzeyə gəlir, Xatirə kitabına ürək sözlərini yazırlar".

Əməkdaşlardan biri muzeydə təmir-bərpa işlərinin aparılacağını, ekspozisiya zalının gələcəkdə böyüdüləcəyini də bildirdi: "Dedilər ki, ekspozisiyanı genişləndirmək üçün ətrafda yeni otaqlar tikiləcək".

### MUZEY HANSI QURUMUN BALANSINDADIR?

Artıq üçüncü dəfədir ki, muzeyin qarşısından axan Tuğ çayı üzərindəki körpü dağılır. Aprelin ortalarında yağan yağış çayın sululuğunu artırıb və körpünü yenidən aparıb. Təbiətin şıltaqlığına hazır olmayan körpünün dağınıtısı isə muzeyin fəaliyyətinin dayanmasına səbəb olub. Amma muzeyi tez-tez ziyarət edənlər hesab edirlər ki, muzeyin fəaliyyəti təbii fəlakətdən daha çox məmurların laqeydliyindən dayanıb.

Filologiya üzrə fəlsəfə doktoru, "Müşfiqnamə" monoqrafiyasının müəllifi Firudin Qurbansoy muzeyə tez-tez baş çəkdiyindən Müşfiq ocağının dərd-sərinə yaxşı bələddir: "Muzeyin yerləşdiyi əraziyə yaxın Tuğ çayı adətən sakit axır. Amma 20-25 ildən bir çayın səviyyəsi qalxır və qabağına nə çıxdı yuyub aparır", - deyə söhbətimizdə bildirdi: "Bu vəziyyəti nəzərə alıb çayın yaxınlığında böyük bir boru qoymuşdular ki, suyun səviyyəsi qalxsa, axıb getsin. Ondan əvvəl də bir gölməçə düzəltmişdilər: su ora yığışsın, sonra axsın. Beləcə, çay öz axarı ilə axırdı, üzərində körpü də qurmuşdular. Həmin borunu çıxarıb kiminsə bağına aparıblar. Nəticədə bu vəziyyət yaranıb. Xızı Rayon İcra Hakimiyyətindən deyirlər ki, muzey Mədəniyyət Nazirliyinin balansındadır. Nazirlik də "Muzey mənim balansımda olsa da, yolu mənim balansımda deyil",- deyir. Beləcə muzeyin problemini o bunun üstünə, bu onun üstünə atır..." F.Qurbansoy muzeyin ərazisinin genişlənəcəyi ilə bağlı əməkdaşlara verilən sözləri də yalançı vədlər adlandırır: "Yalandan vədlər verirlər. Kim edəcək? Muzey hansı qurumun balansındadır? Kim pul ayıracaq?" Filoloq yaranan vəziyyətdə yerli İcra Hakimiyyətinin laqeyd yanaşmasını da qınayır: "Rayonun əsas gəliri turizmdəndir. Bu sahədə muzeylər ən önəmlidir. Çünki turistlər muzeylərə maraq göstərirlər. Xızıda 3 muzey vardı - Cəfər Cabbarlının Ev Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi və Müşfiqin Xatirə Muzeyi. Tarix Diyarşünaslıq Muzeyi bağlandı. Müşfiqin Xatirə Muzeyi də gördüyünüz kimi..."








## Telefonsuz muzey

Mədəniyyət Nazirliyi Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin rəisi Ramil Rəhimov sorğumuza cavab olaraq bildirdi ki, güclü yağıntılar nəticəsində Xızı rayonunda sel hadisəsi baş verib: "Muzeyə gedən əsas yolu təşkil edən Tıx çayı (Tuğ) üzərindəki körpü və muzeyin ərazisində olan söhbətgah yararsız vəziyyətə düşüb. Lakin muzeyin binası zərər görməyib". Təəssüf ki, Xatirə Muzeyinin fəaliyyətini nə vaxt bərpa edəcəyi, körpünün təmiri və s. ilə bağlı suallarımıza nə Xızı Rayon İcra Hakimiyyətindən, nə də Abşeron-Xızı Regional Mədəniyyət İdarəsindən cavab ala bildik. Xatirə Muzeyinə telefon da çəkilməyib. Vikipediya məlumatında qeyd edilən yeganə mobil nömrənin sahibi isə çoxdan muzeylə vidalaşıb: "Mən artıq başqa sahədə çalışıram. Muzeydə telefon yoxdur..."









Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
3 MAY ŞƏNBƏ 2025



# CÜDOÇULARIMIZIN AVROPA SINAĞI

Monteneqronun paytaxtı Podqoritsada keçirilən cüdo üzrə böyüklər arasında Avropa çempionatına yekun vuruldu. "Köhnə dünya"nın aparıcı tatami ustalarının mübarizəsinə Azərbaycan cüdoçuları da qatılmışdılar. Ölkəmizi 12 çəki dərəcəsində təmsil edən 15 cüdoçu (doqquz kişi, altı qadın) Podqoritsanı fərqli nəticələr və əhval-ruhiyyədə tərk etdilər.

**47 ÖLKƏ ARASINDA 10-CU**

Qitə birinciliyində Azərbaycan millisinin qazancı beş medal (bir gümüş və dörd bürünc) oldu. Təmsilçilərimizdən yalnız biri - Paris-2024 Yay Olimpiya Oyunlarının qalibi Zelim Kotsoyev finala vəsiqə qazanmağı bacardı. Gürcüstanlı rəqibinə uduzan Kotsoyev gümüş medalla kifayətləndi. Yığmanın hesabına dörd bürünc medalı isə Əhməd Yusifov (60 kq), Rəşid Məmmədəliyev (73 kq), Zelim Tçkayev (81 kq) və Murad Fətiyev (90 kq) yazdırdılar. Azərbaycan medalların əyarına görə 47 ölkə arasında ümumi komanda hesabında 10-cu, kişilər arasında isə beşinci yeri tutdu.

Maraqlıdır ki, Zelim Kotsoyevdən başqa, digər mükafatçılar karyeralarında ilk dəfə böyüklər arasında Avropa çempionatında medal qazanmağın sevincini yaşadılar. Bununla yanaşı, Azərbaycan cüdo tarixində milli üzvləri ilk dəfə qitə birinciliyində beş fərqli çəki dərəcəsində fəxri kürsüyə yüksəldilər.

**QADIN CÜDOÇULARIMIZ TƏƏCCÜBLƏNDİRƏ BİLMƏDİLƏR**

Etiraf edək ki, kişilərdən fərqli olaraq, ölkəmizdə qadın cüdosu hələ ki lazımi səviyyədə deyil. Podqoritsa səfəri də istisna olmadı. Belə ki, məşqçilər korpusunun etimad göstərdiyi altı milli üzvündən heç biri fəxri kürsüdə yer ala bilmədi. Könül Əliyeva (48 kq), Gültac Məmmədəliyeva (52 kq), Fidan Əlizadə (57 kq), Günel Həsənli, Südabə Ağayeva (hər ikisi 70 kq) və Nigar Süleymanova (+78 kq) ilkin raundlarda mübarizəni dayandırdılar. Qitə birinciliyinin sonuncu günündə isə Azərbaycan yığması qarışıq komanda yarışında gücünü sınadı. Gürcüstan millisinə qarşı 1/8 final görüşü rəqibin 4:0 hesablı qələbəsi ilə yekunlaşdı. Günel Həsənli (70 kq), Zelim Kotsoyev (100 kq), Fidan Əlizadə (57 kq) və Rəşid Məmmədəliyevin (73 kq) rəqiblərinə uduzması millinin mübarizəni erkən dayandırması ilə nəticələndi.

**NƏTİCƏLƏR DAHA YÜKSƏK OLA BİLƏRDİ**

Hazırda milli komandanın iki aşkar lideri var - Zelim Kotsoyev (100 kq) və Hidayət Heydərov (73 kq). Qitə birinciliyinin startından öncə də məhz bu ikilidən qızıl medal gözlənilirdi. Amma təəssüf ki, Avropa çempionatının startı ərəfəsində Paris-2024-də parlaq çıxışı ilə Azərbaycana böyük sevinc bəxş edən Heydərovun səhhətində problem yaşandı. Bu üzdən də məşqçilər korpusu onu heyətdən çıxartmaq məcburiyyətində qaldılar. Çempionluğa əsas namizəd sayılan Heydərovun qazanacağı qızıl medal Azərbaycan yığmasının ümumi sıralamada daha yuxarı pillələrdə qərarlaşmasını təmin edəcəkdi. Ötənilki Avropa çempionu Elcan Hacıyevin (90 kq) zədə səbəbindən Podqoritsaya aparılmaması da unudulmamalıdır. Bir sözlə, sadaladığımız problemlər olmasaydı, böyük ehtimalla nəticələr daha yüksək olacaqdı.



Azərbaycan medalların əyarına görə 47 ölkə arasında ümumi komanda hesabında 10-cu, kişilər arasında isə beşinci yeri tutdu. Zelim Kotsoyevdən başqa, digər mükafatçılar karyeralarında ilk dəfə böyüklər arasında Avropa çempionatında medal qazanmağın sevincini yaşadılar.



## 2024-CÜ İLİN ƏN YAXŞILARI

Podqoritsada təşkil edilən qala-gecə də Azərbaycan cüdosu üçün yaddaqalan oldu. 2024-cü ilin yekunlarına əsasən Hidayət Heydərov (73 kq) Avropada "İlin ən yaxşı kişi cüdoçusu" adına layiq görüldü. Millimizin üzvünə mükafatı Avropa Cüdo İttifaqının prezidenti Laslo Tot təqdim etdi. "İlin ən yaxşı kişi məşqçisi" üçün nəzərdə tutulan mükafat isə Azərbaycan millisinin baş məşqçisi və performans direktoru Rixard Trautmana verildi. Maraq üçün onu da əlavə edək ki, bu ilin fevralında Parisdə keçirilən tədbirdə həm Heydərov, həm də Trautman dünya üzrə ilin ən yaxşıları seçilmişdilər.



## ƏSAS HƏDƏF – LOS-ANCELES-2028

Avropa çempionatının ilin ilk ciddi sınağı olduğunu, eyni zamanda yuxarıda sadaladığımız obyektiv səbəbləri nəzərə alsaq, Podqoritsada qeydə alınan nəticələri normal, hətta yaxşı qiymətləndirmək olar. Azərbaycan Cüdo Federasiyasının rəhbərliyinin sistemli iş və uzunmüddətli layihə əsasında fəaliyyət göstərməsi də bu idman növünün gələcəyinin daha da parlaq olacağından xəbər verir. Müəyyən qüsurlar, çatışmazlıqlar var ki, məşqçilər korpusu onları qarşıdakı təlim-məşq toplanışlarında aradan qaldıracaq. Qitə birinciliyinin yekunları ilə bağlı Avropa Cüdo Birliyinin rəsmi saytına açıqlama verən Rixard Trautman da nikbin fikirlər səsləndirib.

Almaniyalı mütəxəssis həmçinin hədəfləri açıqlayıb: "Sevindirci haldır ki, budəfəki yarışda fəxri kürsüyə əvvəllər yüksəlməyən idmançılar qalxdılar. Əsas hədəfimiz ən mötəbər yarışlar - dünya çempionatı, Yay Olimpiya Oyunları zamanı tam gücümüzdə olmaqdır. Builki dünya çempionatından yaxşı nəticələr gözləyirik. Amma əsas böyük hədəf gələn il Bakıda keçiriləcək dünya çempionatıdır. Orada parlaq çıxış etmək bizim üçün çox vacibdir. Əlbəttə ki, əsas uzunmüddətli hədəfimiz 2028-ci il Los-Anceles Yay Olimpiya Oyunlarıdır. Unutmayaq ki, dünya çempionu olmaq böyük uğurdur, amma cəmiyyətin diqqətini daha çox Olimpiya medalları çəkir".